Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ)

# HƏSSAS QRUPLARIN ƏDALƏT MÜHAKİMƏSİNƏ ÇIXIŞI

“Azərbaycanda məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması”

Dr. Julinda Beqiraj

Oktyabr 2020-ci il

Funded by the European Union and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented by the Council of Europe

**Minnətdarlıq**

Bu hesabat Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) Katibliyinin, Avropa Şurasının Bakıdakı Ofisinin və CEPEJ-in milli mütəxəssisi cənab Cabir Əliyevin dəstəyi ilə CEPEJ eksperti xanım Julinda Beqiraj* tərəfindən hazırlanmışdır. O, məlumatların, sənədlərin və müsahibə cavablarının tənqidi şəkildə nəzərdən keçirilməsi və təhlilinə əsaslanır.

Hesabat Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası, Ədliyyə Akademiyası və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində dövlət rəsmilərinin, həmçinin Azərbaycanın dörd məhkəməsində - Nərimanov, Nəsimi və Səbail rayon məhkəmələrində və Bakı Apellyasiya Məhkəməsində hakimlərin cəlb edilməsi ilə məlumat və sənədlərin toplanmasında iştirakçı yanaşma sayəsində ərsəyə gəlmişdir.

Müəllif və Avropa Şurasının Bakıdakı Ofisinin heyəti bu tədqiqatın araşdırma mərhələsində əməkdaşlıq və yardım üçün həmin institusional həmkarlarına minnətdardır. Bu araşdırmanın ərsəyə gəlməsi onların fəal iştirakı və dəstəyi olmadan mümkün olmazdı.

*Bu Hesabat Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq II (PGG II) çərçivəsində həyata keçirilən Avropa Şurasının və Avropa İttifaqının "Azərbaycanda məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması" birgə layihəsi çərçivəsində hazırlanıb. Bu sənəddə ifadə edilən fikirlər və rəylər müəllifə aiddir və Avropa Şurası ilə Avropa İttifaqının rəsmi siyasətini əks etdirməyə bilər.*

* Dr. Julinda Beqiraj Böyük Britaniyanın Beynəlxalq və Müqayisəli Hüquq İnstitutu (BIICL), Binqam, Qanunun Aliliyi Mərkəzi, Mouris Uol təqaüdlü baş elmi işçisidir.

# HƏSSAS QRUPLARIN ƏDALƏT MÜHAKİMƏSİNƏ ÇIXIŞI

## Mündəricat


**Minnətdarlıq** 2

**Fəsil 1: Giriş** 4

**1.1. Ümumi məlumat** 4

**1.2. Məqsədlər** 5

**1.3. Anlayışlar və əhatə dairəsi** 6

*Ədalət mühakiməsinə və məhkəmələrə çıxış* 6

*Səmərəli hüquqi müdafiə, ədalətli məhkəmə araşdırması və bərabərlik* 6

*Həssas qruplar* 7

**1.4. Metodologiya** 7

**1.5. Hesabatın strukturu** 8

**Fəsil 2: Hüquqi baza və daxili kontekst** 9

**2.1. Əsas beynəlxalq konvensiyaların Azərbaycan tərəfindən ratifikasiyası** 9

**2.2. Məhkəmə sisteminin büdcə və insan resursları** 10

**2.3. Azərbaycanda həssas qrupların məhkəmələrə çıxışını əks etdirən hüquqi baza və məhkəmə statistikası** 12

*Yetkinlik yaşına çatmayan şəxslər* 12

*Fiziki və psixi əlilliyi olan şəxslər* 13

*Azlıqlara mənsub şəxslər* 13

*Məişət zorakılığı* 13

**Fəsil 3: Həssas qrupların məhkəmələrə çıxışı** 16

**3.1. Cinayət mühakiməsi** 16

*Hüquqi yardım və təmsilçilik: pulsuz hüquqi yardıma çıxış* 16

*Məhkəmələrə fiziki çatım* 20

*Lazımi hüquqi proses və ədalətli prosedurlar* 23

*Hakimlər, prokurorlar və inzibati işçilər üçün müvafiq təlim* 30

**3.2. Mülki və inzibati ədalət mühakiməsi** 33

*Hüquqi yardım və təmsilçilik və pulsuz hüquqi yardıma çıxış* 33

*Lazımi hüquqi proses və ədalətli prosedurlar* 37

**Fəsil 4: Tövsiyələrin xülasəsi** 41

**Biblioqrafiya** 43

# HƏSSAS QRUPLARIN ƏDALƏT MÜHAKİMƏSİNƏ ÇIXIŞI

## Fəsil 1: Giriş

### 1.1. Ümumi məlumat

Ədalət mühakiməsinə, eləcə də məhkəməyə çıxış qanunun aliliyinin əsas hissəsidir. Bu, özü-özlüyündə təməl hüquq və həmçinin digər bütün hüquqlardan istifadə üçün ilkin şərtdir. Ədalət mühakiməsinə və məhkəmələrə çıxış həssas qruplar üçün xüsusilə vacibdir və qarşılaşdıqları ayrı-seçkiliyə (və çox zaman hörmətsizlik, ləyaqətin alçaldılması və ya hətta zorakılığa) qarşı əvəzsiz bir vasitə təmin edir. Məsələn, həssas durumda olan insanlar çox zaman rədd edilir və ya məhdud hüquq qabiliyyətinə malik olurlar (məsələn, əlilliyi olan şəxslər və ya uşaqlar) və məhkəmələrə və ya digər kvazi-məhkəmə orqanlarına müraciət etməkdə çətinlik çəkirlər. Paradoksal olaraq, ədalət mühakiməsi və məhkəmələrə səmərəli çıxışa ən çox ehtiyacı olanlar, maneələrlə daha tez-tez üzləşirlər.

Hər bir ölkə həssas qrupların ədalət mühakiməsinə çıxışını əngəlləyən özünəməxsus tarixi və ya mədəni cəhətdən spesifik təcrübə və vəziyyətlərə malik olsa da, konkret ölkənin həmin təcrübələrini daha geniş beynəlxalq hüquq kontekstində nəzərdən keçirmək vacibdir. Beynəlxalq kontekstin iki cəhəti xüsusi əhəmiyyətə malikdir.

Birincisi, beynəlxalq hüquq həssas qrupların ehtiyaclarına və vəziyyətinə uyğun olaraq hazırlanmış hərtərəfli hüquqların və minimum zəmanətlərin toplusunu müəyyənləşdirir. Bunlar Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq (ƏHK, UHK, CEDAW kimi) və ya regional (məsələn, AİHK) sənədlərdə təsbit edilmiş və daha sonra müvafiq məhkəmə və ya kvazi-məhkəmə orqanlarının praktikasında və presedent hüququnda müəyyən edilmişdir.

İkincisi, həssas durumdan irəli gələn problemlərin həllini nəzərdə tutan qətnamə, davamlı inkişaf konteksti daxil olmaqla, müvafiq bərabərlik və ayrı-seçkiliyə yol verməmə siyasətinin ayrılmaz hissəsidir. BMT Baş Assambleyasının 2015-ci ilin sentyabr ayında yekdilliklə qəbul etdiyi 2030-cu illədək Davamlı İnkişaf Gündəliyi[1] həssas qrupların müdafiəsi və rifahının yüksəldilməsinə praktiki yollarla töhfə vermək istiqamətində güclü potensiala malikdir. O, bunu, birincisi, "heç kim kənarda qalmamalıdır" kimi açıq vədi ilə, ikincisi, qanunun aliliyi və ədalət mühakiməsinə çıxış haqqında konkret hədəfin daxil edilməsi yolu ilə (Məqsəd 16 və ya Davamlı İnkişaf Məqsədi (DİM) 16) edir, həmin hədəf hüququn və ədalət mühakiməsinin oynamalı olduğu vacib rolu tanıyır. DİM 16-da nəzərdə tutulur:

[1] BMT, Dünyamızı dəyişdirərkən: Davamlı İnkişaf Gündəliyi 2030, Baş Assambleya tərəfindən 25 sentyabr 2015-ci il tarixində qəbul edilmiş qətnamə.

> “davamlı inkişaf üçün dinc və inklusiv cəmiyyətləri təşviq etmək, hər kəs üçün ədalət mühakiməsinə çıxış imkanını təmin etmək və bütün səviyyələrdə səmərəli, hesabatvermə öhdəliyinə malik və inklusiv qurumlar yaratmaq”.[2]

Çox vacibdir ki, 2030-cu il Gündəliyinin icrasının monitorinqi, yaş, cins, etnik mənsubiyyət, miqrasiya vəziyyəti, əlillik və s. kateqoriyaya bölünməklə məlumat toplanmasını təşviq edir ki, dünya əhalisinin ən həssas qruplarının kənarda qalmaması təmin edilsin.[3] Statistik və tədqiqat məlumatları da daxil olmaqla müvafiq məlumatların olmaması mənfi təsir göstərir və həssas qruplara mənsub şəxsləri və qarşılaşdıqları problemləri siyasət səviyyəsində görünməz hala gətirir. Hərtərəfli və etibarlı statistik məlumatların toplanması hökumətlərin dəlillərə əsaslanan siyasətlər hazırlamasına və həyata keçirməsinə imkan yaradır.

### 1.2. Məqsədlər

Hesabatın məqsədi Azərbaycan hakimiyyət orqanlarına həssas qrupların məhkəmələrə çıxışını təşviq etmək və asanlaşdırmaq istiqamətində tədbirlərlə bağlı ekspert tövsiyələrini nəticələr və tövsiyələr toplusu şəklində verməkdir. Bu, beynəlxalq standartlar, qabaqcıl təcrübələr və ədalət mühakiməsinin səmərəliliyi və keyfiyyətinə dair CEPEJ alətlərinə əsaslanacaq. Hesabatda məqsəd, Azərbaycanda həssas qrupların ədalət mühakiməsinə çıxışına mane olan əsas hüquqi məsələləri və təcrübələri qiymətləndirməklə buna nail olmaq və dünyanın müxtəlif yurisdiksiyalarının təcrübəsindən mümkün həll yollarını vurğulamaqdır.

Bu hesabat CEPEJ-in “Azərbaycanda məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması” layihəsi çərçivəsində hazırlanmışdır və layihənin bu sahədə davam edən fəaliyyətlərinin tərkib hissəsidir. Hazırkı işi hazırlamaqda Layihə aşağıdakı məqsədləri güdür:

- əlilliyi olan şəxslərin ədalət mühakiməsinə və məhkəmələrə çıxış imkanına müxtəlif növ maneələr və bu maneələrin aradan qaldırılması yolları barədə qiymətləndirmə və maarifləndirmə işi aparmaq;
- həssas qruplara mənsub olan şəxslərin ədalət mühakiməsinə və məhkəmələrə çıxışı imkanının artırılmasında siyasətçilər, hakimlər, vəkillər, vətəndaş cəmiyyəti təşkilatları və başqaları üçün dəyərli bir mexanizm təmin etmək, bununla da hüquqların praktiki icrasını təşviq etmək;
- vətəndaş cəmiyyəti və hökumətlərlə işləyən hüquq ictimaiyyətinin, xüsusilə fövqəladə hallar və sərt iqtisadi tədbirlər dövründə həssas qrupların məhkəmələrə çıxış imkanının

[2] Məqsədlər, özlüyündə ümumi vəzifələri ifadə edir və daha ətraflı Hədəflərlə müşayiət olunur. Hədəf 16.3-də "qanunun aliliyinin milli və beynəlxalq səviyyələrdə təşviq edilməsi və hər kəs üçün ədalət mühakiməsinə bərabər çıxış imkanının təmin edilməsi" nəzərdə tutulur.
[3] "Heç kim kənarda qalmamalıdır" Gündəliyin əsas şüarıdır.

təmin edilməsində və ya yaxşılaşdırılmasında necə iştirak edə biləcəyi barədə milli və beynəlxalq təcrübələri öyrənmək və gələcək müzakirə və tədqiqatların aparılmasına imkan yaratmaq.

### 1.3. Anlayışlar və əhatə dairəsi

*Ədalət mühakiməsinə və məhkəmələrə çıxış*

Bu hesabatda əksini tapmış ədalət mühakiməsinə çıxış konsepsiyası mülki, inzibati və ya cinayət mühakiməsi problemlərinin həllinin əldə edilməsi prosesinin müxtəlif mərhələlərini əhatə edən hərtərəfli bir anlayışdır. O, qanunlarda təsbit edilmiş hüquqların mövcudluğundan və bu hüquqlardan xəbərdar olmaq və anlaşılmasından başlayır. O, məhkəmələrdə mübahisələrin həlli mexanizmlərinə çıxış imkanı, vəkil və təmsilçiliyin mövcudluğu və onlara çıxış imkanlarını əhatə edir. Bu, bu cür mexanizmlərin ədalətli, qərəzsiz və icrası mümkün həllər təqdim etmə qabiliyyətini əhatə edir.

*Səmərəli hüquqi müdafiə, ədalətli məhkəmə araşdırması və bərabərlik*

Ədalət mühakiməsinə çıxış hüququ, səmərəli hüquqi müdafiə, ədalətli məhkəmə araşdırması və bərabərlik hüquqlarından ibarət, həmin hüquqlardan asılı məfhum və onların genişləndirilməsi kimi başa düşülə bilər. Səmərəli hüquqi müdafiə hüququ ədalət mühakiməsinə geniş çıxış imkanından bəhs edir, ədalətli məhkəmə araşdırması hüququ isə ədalət mühakiməsinə prosessual çıxış standartlarını müəyyən edir.[4] Ayrı-seçkiliyə yol verilməməsi və ya bərabərlik barədə müddəalar, ədalət mühakiməsinə çıxış kimi ümumi hüququn təməlini əks etdirən səmərəli hüquqi müdafiə vasitəsi və ədalətli məhkəmə araşdırması hüququna əlavə edilə bilər.[5] Ayrı-seçkiliyə qarşı müddəalar ümumiyyətlə, qanun qarşısında bərabərliyi və / və ya yaş, irq, din və ya əlillik kimi amillərə əsaslanan ayrı-seçkilikdən müdafiəni təmin edir. Beləliklə, ədalət mühakiməsinə və məhkəməyə səmərəli çıxış imkanı, həssas qruplara mənsub şəxslərin qanuni hüquqlarını və əsas azadlıqlarını daha yaxşı müdafiə edə biləcəkləri bir mühit yaradır.

[4] Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (UDHR) səmərəli hüquqi müdafiə vasitələri hüququ (maddə 8) və ədalətli məhkəmə araşdırması hüququnu (maddə 10) ilkin olaraq təsbit edib.
[5] Bərabərlik hüquqları hazırda daha çox yayılmış məfhumdur və Avropa İnsan Hüquqları Konvensiyası (maddə 14), Avropa İttifaqının Əsas Hüquqlar Xartiyası (maddə 20-26), Amerika İnsan Hüquqları Konvensiyası (maddə 24) və İnsan və Xalqların Hüquqlarına dair Afrika Xartiyası (maddə 2 və 3) kimi sənədlərdə rast gəlinir.

*Həssas qruplar*

Ümumi istifadəsinə baxmayaraq, həssaslıq konsepsiyasının mənası mürəkkəb və qeyri-müəyyəndir. [6] Bununla yanaşı, fərqli sahələrdən olan alimlər arasında "həssaslığın analitik olaraq həm təsviri, həm də zamanla adət şəklinə düşmüş bir vasitə olduğuna dair razılaşma mövcuddur ki, bu da cəmiyyət və ya institusional mexanizmlərin həssaslıqları necə yaratdığını, dəstəklədiyini və gücləndirdiyini araşdırır".[7]

Həssas qruplar konsepsiyası Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) presedent hüququnda son zamanlarda öz inkişafını tapmışdır. Məhkəmə, bu təcrübədən, məsələn, qaraçılara, psixi əlilliyi olan şəxslərə, HİV-lə yaşayanlara və sığınacaq axtaranlara dair işlərdə istifadə etmişdir. Bu yanaşmaya əsaslanaraq, bu hesabat dörd həssas qrupla əlaqəli ədalət mühakiməsinə çıxış problemlərinə toxunacaq: əlilliyi olan şəxslər, qadınlar, uşaqlar və azlıqlara mənsub şəxslər.

## 1.4. Metodologiya

Hesabat masaüstü araşdırmalar və müsahibələrə əsaslanır.

Masaüstü araşdırma əsasən ədalət mühakiməsinə çıxış yolundakı maneələri dəf etmək üçün beynəlxalq həll yolları və qabaqcıl təcrübələr ilə bağlı ədəbiyyatdan götürülmüş kəmiyyət və keyfiyyət baxımından mövcud məlumatları araşdırır. Hesabatda Beynəlxalq Vəkillər Assosiasiyası (IBA) tərəfindən həyata keçirilmiş ədalət mühakiməsinə çıxışa dair beş beynəlxalq araşdırma əsas götürülmüşdür. Hesabatda, həmçinin Azərbaycanın qanunvericilik bazası və onun tətbiqi və CEPEJ qiymətləndirmə tapşırığının məqsədi üçün Azərbaycan tərəfindən verilən cavablar araşdırılıb.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası, Ədliyyə Akademiyası və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində dövlət rəsmiləri ilə bir sıra müsahibələr aparılmışdır. Azərbaycanın dörd məhkəməsində - Nərimanov, Nəsimi və Səbail rayon məhkəmələrində və Bakı Apellyasiya Məhkəməsində hakimlərlə də müsahibələr aparıldı. Həssas qrupların ədalət mühakiməsinə, xüsusən də məhkəmələrə çıxış məsələsində üzləşdikləri əsas problemlərin anlaşılması və sübutu məqsədilə anket hazırlanmışdır. Məhkəmə sisteminin hüquqi bazası və təşkili ilə bağlı ümumi sualları özündə cəmləşdirən anketin birinci hissəsi Avropa Şurasının Bakıdakı Ofisinin dəstəyi ilə CEPEJ-in milli

[6] Lourdes Peroni, Alexandra Timmer, Həssas qruplar: Avropa İnsan Hüquqları Konvensiyası hüququnda yeni konsepsiyanın ortaya çıxması perspektivi, Beynəlxalq Konstitusiya Hüququ Jurnalı, Cild 11, Say 4, oktyabr 2013, səhifə 1056–1085, https://doi.org/10.1093/icon/mot042
[7] yenə orada, sətirsonu qeyd 26.

mütəxəssisi tərəfindən doldurulmuşdur. Anketin həssas qrupların məhkəmələrə səmərəli çıxış imkanını təmin etmək üçün praktikada həyata keçirilmiş tədbirlər barədə konkret sualları özündə cəmləşdirən ikinci hissəsi, dörd məhkəmədə aparılmış müsahibələrin tərkib hissəsi idi.

### 1.5. Hesabatın strukturu

Bu giriş layihənin kontekstini, məqsədlərini, anlayışları və əhatə dairəsini və metodologiyasını izah edir. Fəsil 2 qanunvericilik bazasını və daxili konteksti məhkəmə sistemi və məhkəmə statistikası üçün büdcə və insan resursları baxımından izah edir.

Fəsil 3 beynəlxalq təcrübə əsasında həssas qrupların ədalət mühakiməsinə çıxışı üçün ümumi problemləri və həll yollarını müəyyənləşdirməklə və bunları Azərbaycanda qanunvericilik və təcrübə ilə müqayisə etməklə hesabatın əsasını təşkil edir. Hesabat boyunca müzakirə olunan məsələlərə və konkret halların tədqiqinə dair nümunələr çərçivələr daxilində verilib. Bunlara dair mənbələr qısa şəkildə verilmişdir, təfərrüatları isə biblioqrafiyada fəsillərlə sadalanmışdır.

Fəsil 4 hesabatın müxtəlif bölmələrində verilmiş tövsiyələri ümumiləşdirir.

## Fəsil 2: Hüquqi baza və daxili kontekst

### 2.1. Əsas beynəlxalq konvensiyaların Azərbaycan tərəfindən ratifikasiyası

Azərbaycan bu hesabatda əks olunan həssas vəziyyətdə olan şəxslərin hüquqlarını əks etdirən əsas beynəlxalq və Avropa konvensiyalarının çoxunu ratifikasiya etmişdir: BMT-nin Uşaq Hüquqları Konvensiyası (UHK),[8] BMT-nin Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının ləğv edilməsi haqqında Konvensiyası (CEDAW),[9] BMT-nin Əlillərin Hüquqları haqqında Konvensiyası (ƏHK),[10] və Avropa Şurasının (AŞ) Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyası (MAÇK).[11] O, həm də AŞ-nin Regional Dillər və ya Azsaylı Xalqların Dilləri üzrə Avropa Xartiyasını imzalamış, lakin hələ ratifikasiya etməmişdir.[12] Təəssüf ki, Azərbaycan, Rusiya ilə yanaşı Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında AŞ Konvensiyasını (İstanbul Konvensiyası) imzalamayan və ratifikasiya etməyən az sayda ölkələrdən biridir[13].

Bütün bu sənədlər müvafiq həssas qrupların üzvlərinin ədalət mühakiməsinə səmərəli çıxışını təmin etmək üçün xüsusi müddəaları ehtiva edir və bu səbəbdən də onlar konvensiyalarda təsbit edilmiş hüquq və azadlıqlarının pozulması iddialarını məhkəmədə səmərəli şəkildə qaldıra bilərlər. Məsələn, əlilliyi olan şəxslərlə bağlı ƏHK-nın 13-cü maddəsində göstərilir: "İştirakçı dövlətlər ədalət məhkəməsini əlillərə digərləri ilə bərabər səviyyədə təmin edir, o cümlədən ibtidai istintaqın təhqiqat və digər mərhələləri də daxil olmaqla, hüquqi prosesin bütün mərhələlərində düzünə və dolayı iştirakçıların, o cümlədən şahidlərin öz səmərəli rolunu yerinə yetirməsini asanlaşdıran prosessual və yaşa uyğun düzəlişlər nəzərdə tuturlar." Milli azlıqların yaşadığı ərazilərdə MAÇK-nın 10-cu maddəsi tələb edir ki, İştirakçı Dövlətlər, həmin şəxslər və inzibati orqanlar arasındakı münasibətlərdə milli azlıqların dillərinin istifadəsinə imkan verməlidir. Eyni müddəada daha sonra "milli azlığa mənsub olan hər bir şəxsin anladığı dildə, həbs olunma səbəbləri, ona qarşı irəli sürülən hər hansı ittihamın mahiyyəti və səbəbi barədə dərhal məlumatlandırılması və ya özünü lazım olduqda pulsuz təmin edilmiş tərcüməçinin köməyi ilə bu dildə müdafiə etmək hüququ" olduğu bildirilir. Səmərəli hüquqi müdafiə, ədalətli məhkəmə araşdırması və ayrı-seçkiliyə yol verilməməsi ilə bağlı olan ədalət mühakiməsinə çıxış hüququ, həmçinin UHK-nın 3-cü (uşağın ən yaxşı mənafeyi), 12-ci

---

[8] Azərbaycan UHK-ya 13 avqust 1992-ci ildə qoşulmuşdur.
[9] Azərbaycan CEDAW-ya 10 iyul 1995-ci ildə qoşulmuşdur.
[10] Azərbaycan ƏHK-nı 28 yanvar 2009-cu ildə ratifikasiya etmişdir.
[11] Azərbaycan Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyasını 26 iyun 2000-ci ildə ratifikasiya etmişdir.
[12] Regional Dillər və ya Azsaylı Xalqların Dilləri üzrə Avropa Xartiyasını Azərbaycan 21 dekabr 2001-ci ildə imzalamışdır.
[13] Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası, İstanbul, 11 may 2011-ci il

(fikirlərinin dinlənilməsi hüququ) və 40-cı (uşaqlar və cinayət hüququ) və CEDAW-nun 2-ci və 15-ci maddələrində təsbit edilmişdir.

Bu Konvensiyalar çərçivəsində yaradılmış monitorinq qurumları vaxtaşırı olaraq qanunvericilikdə və ya tətbiqetmə praktikasında təkmilləşməyə ehtiyacı olan sahələri vurğulayırlar. Nümunələrə daxildir: əqli və / və ya psixososial imkanları məhdud böyüklərin və uşaqların psixiatriya müəssisələrində məcburi saxlanılması təcrübələrinin həllinə olan ehtiyac; qadınlara qarşı zorakılığın bütün formalarının qarşısının alınması və onlarla mübarizə səylərini gücləndirmək barədə tövsiyə; xüsusilə cinsi xarakterli zorakılıq və məişət zorakılığı hallarının yüksək olaraq qalmasına, səssiz qalma mədəniyyəti səbəbindən çox zaman dözüldüyünə və barəsində az bildirildiyinə dair narahatlıq; gender bərabərliyinin təmin edilməsinə yönəlmiş tədbirlərin artırılması barədə tövsiyə və s.[14]

Bu öhdəliklər Azərbaycanda qanunvericiliyin tərkib hissəsi olsa da, Azərbaycanın 4 məhkəməsində hakimlərlə aparılan müsahibələrdə bu təminatların praktikada necə tətbiq edilməsi barədə az nümunə verilmişdir (daha ətraflı məlumat aşağıdakı hissələrdə).

| | |
|---|---|
| **Aşkar edilən faktlar** | Azərbaycan həssas qrupların (qadınlar, uşaqlar, əlilliyi olan şəxslər, azlıqlar) hüquqlarının müdafiəsinə dair əsas beynəlxalq və Avropa sənədlərinin çoxunu ratifikasiya etmişdir. |
| **Tövsiyə 1** | Beynəlxalq öhdəliklərin lazımi şəkildə yerinə yetirilməsini təmin edərkən insan hüquqlarının monitorinqi ilə məşğul olan orqanlar tərəfindən qaldırılan sistematik məsələlərə daha çox diqqət yetirilməlidir. |

### 2.2. Məhkəmə sisteminin büdcə və insan resursları

Qonşu ölkələrlə və median Avropa səviyyəsi ilə müqayisədə Azərbaycanda məhkəmə sisteminə ayrılan büdcə və insan resurslarının səviyyəsi necədir? 2018-ci ilə dair məlumatları təhlil edən bu yaxınlarda dərc olunmuş CEPEJ qiymətləndirmə üzrə dövri hesabatı göstərir ki, Azərbaycanda məhkəmə sisteminin büdcəsi ÜDM-ə nisbətdə yüksək deyil (Avropada orta göstərici 0,32% və median göstərici 0,28% ilə müqayisədə 0,205%-dir). Hesabatda ÜDM-ə nisbətdə hesablanan büdcənin az zəngin ölkələrdə nisbətən daha yüksək olduğu ümumi tendensiya qeyd olunur, yəni əksəriyyəti məhkəmə sistemini digər dövlət xidmətlərinə

[14] İnsan hüquqları qurumlarının Azərbaycanla bağlı şərhləri, müşahidələri və tövsiyələri ilə burada tanış ola bilərsiniz: https://uhri.ohchr.org/en/search-human-rights-recommendations

nisbətən üstün tutur. Azərbaycan, Ermənistan və Türkiyədə məhkəmə sistemi büdcəsi/ÜDM nisbəti aşağı olduğu üçün bu tendensiya istisnadır.[15]

Qonşu ölkələrlə (Ermənistan və Gürcüstan) müqayisədə Azərbaycan məhkəmə sisteminə ümumilikdə oxşar səviyyədə büdcə ayırır, lakin adambaşına - peşəkar hakimlər (Ermənistanda 8 və Gürcüstanda 8,2 ilə müqayisədə 5,7), vəkillər (Ermənistanda 72,2 və Gürcüstanda 123 ilə müqayisədə 15,7) və qeyri-hakim işçilərlə (Ermənistanda 66,7, Gürcüstanda 40 ilə müqayisədə 26,7) bağlı daha aşağı rəqəmə malikdir. Həmçinin, 2018-ci ildə hüquqi yardım göstərilməsinə ayrılmış büdcə çox aşağı idi - Ermənistanda adambaşına 0,229€ və Gürcüstanda 0,456€ ilə müqayisədə 0,072€. Bütün bu göstəricilər aşağıdakı qrafikdə göstərildiyi kimi, müvafiq Avropa median göstəricisindən xeyli aşağıdır. Əksinə, hesabat aşkar etdi ki, adambaşına düşən məhkəmə büdcəsinin az olmasına baxmayaraq, Azərbaycan digər Avropa Şurasına üzv ölkələrə nisbətən İT sahəsinə böyük vəsait ayırmışdır.[16]

**Şəkil 1: Ermənistan, Azərbaycan və Gürcüstanda peşəkarlar və büdcə vəsaitləri**




Mənbə: CEPEJ məlumat lövhəsi "Məhkəmə sistemlərinə ümumi baxış" 2020.

| | |
|---|---|
| **Aşkar edilən faktlar** | Azərbaycanda məhkəmə sistemi üçün büdcə ÜDM-ə nisbətdə yüksək deyil. Qonşu ölkələrlə və Avropa standartları ilə müqayisədə Azərbaycan xeyli az sayda (adambaşına) peşəkarlar, vəkillər və qeyri-hakim kadrlara malikdir. Həmçinin, 2018-ci ildə hüquqi yardım göstərilməsinə ayrılmış büdcə xeyli aşağı idi. |

[15] CEPEJ, məhkəmə sistemlərinin qiymətləndirilməsi, 2018-2020, s. 21: https://rm.coe.int/evaluation-report-part-1-english/16809fc058
[16] Yenə orada, s. 96.

| | |
|---|---|
| **Tövsiyə 2** | Məhkəmə qurumlarına yetərincə maliyyə və insan resursları ayrılmaması məhkəmə sisteminin səmərəli fəaliyyət göstərməsində çatışmazlıqlar yarada bilər və ədalət mühakiməsinə çıxış imkanına ciddi təsir göstərə bilər. Məhkəmə sisteminin ehtiyaclarının hərtərəfli qiymətləndirilməsi sistemdə vəsaitlərin istifadəsinin daha dəqiq qiymətləndirilməsinə kömək edəcəkdir. |

## 2.3. Azərbaycanda həssas qrupların məhkəmələrə çıxışını əks etdirən hüquqi baza və məhkəmə statistikası

Məhkəmələr və hakimlər haqqında Qanunun 87-ci maddəsinə əsasən "Azərbaycan Respublikasının məhkəmələrində hər yarım ildə bir dəfədən az olmayaraq statistika hesabatı tərtib edilir". Ancaq Azərbaycanda məhkəmə statistikası, həssas qrupların məhkəmələrə çıxış imkanını yaş, cins, əlillik və ya etnik mənsubiyyətə görə ayrılmış məlumatlar vasitəsilə kəmiyyət baxımından nə dərəcədə əldə etməyə imkan verir?

### *Yetkinlik yaşına çatmayan şəxslər*

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə görə (84.1-ci maddə) 14-18 yaş arasındakı şəxslər yetkinlik yaşına çatmayan şəxslər hesab edilir. Cinayət törədənədək on altı yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir; lakin bu hədd bir sıra cinayətlər üçün on dörd yaş olaraq müəyyən edilmişdir (20-ci maddə).

Masaüstü araşdırma, sənədli mənbələrin və müsahibələrin təhlili vasitəsilə toplanmış məlumatlar göstərir ki, məhkəmə statistikası yetkinlik yaşına çatmayan məhkumların sayı barədə toplanır və 14-16 və 16-18 yaş qruplarına görə bölünüb. Yetkinlik yaşına çatmayanlarla bağlı işlərlə məşğul olan xüsusi məhkəmələr yoxdur; bununla yanaşı, UNICEF layihəsi çərçivəsində, hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində yetkinlik yaşına çatmayanlarla bağlı işlərə iki heyət (hər birində üç hakim) baxır.

Ümumiyyətlə, həm mülki, həm də cinayət icraatında tərəflərin yaşı, cinsi, ailə vəziyyəti, təhsili, peşəsi, verilmiş cəza növləri, keçmiş məhkumluğu və s. haqqında məlumatları da qeyd olunur. Mülki məhkəmə icraatında 14-18 yaş aralığında olan yetkinlik yaşına çatmayanların hüquqları, azadlıqları və qanunla qorunan mənafeləri məhkəmədə qanuni nümayəndələri tərəfindən ifadə olunur və/və ya qorunur, lakin məhkəmə yetkinlik yaşına çatmayanların məhkəməyə şəxsən cəlb edilməsinə qərar verə bilər. Həmçinin, ümumi prosessual fəaliyyət qabiliyyəti 18 yaşından başlasa da, 16 yaşlı gənc tam fəaliyyət qabiliyyətli elan edilə bilər (emansipasiya) və bu səbəbdən məhkəmədə birbaşa hüquq və vəzifələrini həyata keçirmək hüququna malikdir. Qanunvericilikdə nəzərdə tutulmuş və mülki, ailə, əmək, inzibati və digər hüquqi

münasibətlərlə əlaqəli və ya aldığı əmək haqqının və ya sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirin sərəncamı ilə əlaqəli bəzi hallarda yetkinlik yaşına çatmayanlar hüquq və mənafelərini şəxsən özləri qoruya bilərlər.

### *Fiziki və psixi əlilliyi olan şəxslər*

Əlilliyi olan şəxslərlə əlaqəli işlərə ümumi yurisdiksiyaya malik məhkəmələrdə baxılır, çünki bu məqsədlə xüsusi məhkəmələr və ya ümumi yurisdiksiya məhkəmələri daxilində xüsusi bölmələr yoxdur. Fiziki və psixi əlilliyi olan şəxslərin qanuni iddia qaldırmaq qabiliyyəti olmadıqda, onların hüquq, azadlıq və mənafeləri məhkəmədə onların qanuni nümayəndələri tərəfindən qorunur; bununla belə, məhkəmə, onların şəxsən icraata cəlb edilməsi üçün konkret iş üzrə ayrıca qərar verə bilər.

Əlilliyi olan şəxslər haqqında məlumat və statistika milli səviyyədə bir neçə məqsədlə toplanılır, məsələn: pensiya və ya müavinət alan əlilliyi olan şəxslərin sayı; ilk dəfə əlillik diaqnozu qoyulmuş 18 yaşdan yuxarı şəxslərin yaş qrupuna və əlillik səbəblərinə görə ayrılması; əlillərə ev sahibliyi edən sosial qayğı qurumları. Bununla belə, cinayət və ya mülki işlərdə iştirak edən fiziki və psixi əlilliyi olan şəxslərin məhkəmələrə çıxışı ilə əlaqədar məhkəmə statistikası toplanmır.

### *Azlıqlara mənsub şəxslər*

2009-cu il əhalinin siyahıya alınmasına əsasən, Azərbaycan əhalisinin 91,6%-i azərbaycanlılardan ibarət idi; digər əsas etnik qruplar ermənilər (1,35%), ləzgilər (2,02%), ruslar (1,34%), talışlar (1,26%) və s. idi[17] Konstitusiyanın 44 və 45-ci maddələri ardıcıl olaraq milli mənsubiyyət və ana dilindən istifadə hüququnu tanıyır. Konstitusiyanın 127-ci maddəsinə əsasən, işin iştirakçısı olub məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslərin işin materialları ilə tam tanış olmaq, məhkəmədə tərcüməçi vasitəsi ilə iştirak etmək və məhkəmədə ana dilində çıxış etmək hüququ təmin edilir.

Bununla belə, hazırda məhkəmə statistikası, istintaqı davam etməkdə olan işlər, cinayət hökmləri və ya mülki hüquq işləri ilə əlaqədar olaraq, etnik azlıqların nümayəndələrinin məhkəməyə ümumi çıxış imkanı barədə ümumi təsəvvür əldə etməyə imkan vermir.

### *Məişət zorakılığı*

Məişət zorakılığı ayrıca cinayət əməli hesab edilmir və cinayət törədildikdə məişət şəraiti ağırlaşdırıcı və ya yüngülləşdirici amil kimi nəzərə alınmır. Bununla belə, 2010-cu il tarixli Məişət zorakılığının qarşısının alınması haqqında qanun, cinayət baş verdiyi halda cinayət təqibi ilə birlikdə görüləcək tədbirləri müəyyənləşdirmişdir. Həmçinin, Mülki Prosessual Məcəllədə, zərərçəkənin və ya müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında məişət

---

[17] https://www.stat.gov.az/source/demography/?lang=en

zorakılığı qurbanı üçün uzunmüddətli mühafizə orderinin verilməsi kimi xüsusi prosedur növü nəzərdə tutulmuşdur. Uzunmüddətli mühafizə orderi 30-180 gün müddəti üçün verilə bilər. Bundan əlavə, İnzibati Xətalar Məcəlləsi "Məişət zorakılığı haqqında" Qanunun tələblərinin pozulmasını inzibati xəta kimi müəyyən edir. Həmin məcəllənin 158-ci maddəsinə əsasən, məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yəni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlər cərimə ilə cəzalandırılır. Bundan əlavə, məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlər də cərimə ilə cəzalandırılır.

"Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun 18-ci maddəsinə əsasən, müvafiq icra hakimiyyəti orqanı tərəfindən məlumat bankı yaradılmalıdır. Məlumat bankında baş vermiş məişət zorakılığı halları, məişət zorakılığı halları ilə bağlı dövlət orqanlarına müraciət etmiş şəxslər, məişət zorakılığı halları ilə bağlı aparılmış araşdırmalar və araşdırmaların nəticələri, məişət zorakılığı halları ilə əlaqədar məsuliyyətə cəlb edilmiş şəxslər, məhkəmə qərarları, o cümlədən valideynlik hüquqlarından məhrum edilmiş və ya valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər, eləcə də valideynlik hüquqları bərpa edilmiş və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ləğv edilmiş şəxslər, akkreditə edilmiş yardım mərkəzləri, onların fəaliyyəti barədə və digər məlumatlar toplanır.

**Cədvəl 2: Birinci instansiya məhkəmələrinin icraatında olan mülki işlərə dair məlumatlar 2019**

| İşlər | Daxil olmuşdur | Baxılmışdır |
|---|---|---|
| Məişət zorakılığından zərərçəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi | 6 | 6 |
| Valideynlik hüquqlarından məhrum etmə | 347 | 268 |
| Valideynlik hüquqlarının məhdudlaşdırılması | 28 | 24 |

Həmçinin uzunmüddətli mühafizə orderinin verilməsi və 158-ci maddə (İnzibati Xətalar Məcəlləsi) ilə bağlı məlumatlar toplanır və statistika tərtib olunur. Lakin bu işlərin sayı çox azdır (2019-cu ildə məişət zorakılığına məruz qalmış şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə bağlı 6 iş daxil olmuş və 158-ci maddə üzrə heç bir iş daxil olmamışdır).

| | |
|---|---|
| **Aşkar edilən faktlar** | Azərbaycanda məlumatlar toplanılır və məhkəmə statistikası yaş və cinsə görə tərtib edilir, lakin əlillik və ya etnik mənsubiyyət, miqrasiya statusu kimi digər xüsusiyyətlərə görə tərtib edilmir. |

| | |
|---|---|
| **Tövsiyə 3** | "Ölçə bilmirsinizsə, yaxşılaşdıra bilməzsiniz" şüarına uyğun olaraq məhkəmə statistikası məhkəmə islahatı üçün vacibdir. Məhkəmə statistikasının yaş və cinsdən əlavə əlillik, etnik mənsubiyyət, miqrasiya statusu üzrə ayrılması Davamlı İnkişaf Məqsədləri (DİM) çərçivəsində də tələb olunur ki, burada hökumətlər ədalət mühakiməsinə səmərəli çıxış təminatı daxil olmaqla "heç kim kənarda qalmamalıdır" öhdəliyi götürüblər (DİM 16). Azərbaycan məhkəmə məlumatlarını toplamaq və yaşa, cinsə, etnik mənsubiyyətə, əlilliyə, milliyyətə / miqrasiya statusuna görə bölünə bilən statistik məlumatlar hazırlamaq üçün səylərini artırmalıdır. |

## Fəsil 3: Həssas qrupların məhkəmələrə çıxışı

### 3.1. Cinayət mühakiməsi

*Hüquqi yardım və təmsilçilik: pulsuz hüquqi yardıma çıxış*

***Keyfiyyətli hüquqi yardımın mövcudluğu***. Hüquq təmsilçilik ənənəvi olaraq məhkəmələrə və ədalət mühakiməsinə çıxış imkanının mərkəzində dayanır. Bu olmadan tərəflər arasında bərabər imkanlar olmayacağı, məhkəmə araşdırmalarının ədalətli olmayacağı və/və ya qanuni hüquqların lazımi dərəcədə qorunmayacağı və ya tətbiq olunmayacağı barədə yüksək risklər mövcuddur. İxtisaslı vəkilllərin mövcudluğu həlledici əhəmiyyətə malikdir. CEPEJ statistikasından da göründüyü kimi (yuxarıda şəkil 1), Azərbaycanda adambaşına düşən vəkillərin sayı azdır (hər 100.000 əhaliyə Ermənistanda 72.2, Gürcüstanda 123, Avropada median göstərici 120.4 ilə müqayisədə 15.7).

Vəkillərin sayının az olması, fəaliyyətdə rəqabəti təşviq etməyə, keyfiyyətli hüquqi yardımın artırılmasına yönəlmiş tədbirlərə səbəb olmuşdur. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 22.02.2018-ci il tarixli Sərəncamı, Vəkillər Kollegiyası Rəyasət Heyəti tərəfindən Hüquqi Yardım və Tədris Mərkəzinin təsis edilməsi ilə nəticələndi, həmin mərkəz 2019-cu ilin dekabrında fəaliyyətə başladı. Mərkəz aşağıdakıları təmin etmək məqsədi güdür: vətəndaşlara peşəkar hüquqi yardım göstərmək; mövcud qanunvericiliyə uyğun olaraq dövlət hesabına hüquqi yardımın göstərilməsində iştirak edən vəkillərin işini təşkil etmək; məhkəmə qərarı ilə müəyyən olunmuş vəkil haqlarının vaxtında ödənilməsini təmin etmək; və vəkillərin peşəkarlığını daha da artırmaq üçün onları təlimlərə cəlb etmək.

Eyni zamanda, vəkillər pulsuz hüquqi yardım (dövlət büdcəsi hesabına) göstərməsinə təşviq edilmişdir. 2018-ci ilin may ayında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə vəkilə hüquqi yardım göstərilməsinin hər iş saatı üçün ödənilən məbləğ üç dəfə artırılaraq 6 manat (təqribən bir saata 3 Avro) müəyyən edildi. Bununla belə, bu haqq digər ölkələrə nisbətən çox aşağıdır.

***Pulsuz hüquqi yardım və təmsilçiliyin mövcudluğu.*** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın (MSHBP) 14-cü Maddəsi dövlətlərin üzərinə öhdəlik qoyur ki, cinayət ittihamına baxılarkən müdafiəçinin haqqını ödəməyə kifayət qədər vəsaiti olmayan şəxslər üçün pulsuz hüquqi yardım təmin etsin. Dövlətlər, həmçinin maddi ehtiyacı olan şəxslər üçün mülki məsələlərlə bağlı pulsuz hüquqi yardım göstərməyə sövq edilir.[18] Bu, əmlak, müqavilə və borc, əmək istismarı və iş yerindəki ayrı-seçkilik kimi bir çox mülki mübahisələrdə,

---

[18] İnsan Hüquqları Komitəsi, maddə 14-ə dair 32 saylı ümumi şərh: Məhkəmələr və tribunallar qarşısında bərabərlik və ədalətli məhkəmə araşdırması hüququ, CCPR/C/ GC/32, 23 avqust 2007, bənd 10.

mühacirət və sığınacaqla əlaqədar dövlət inzibati qərarlarına məhkəmə baxışında vacibdir. Bu mübahisələr fərdlərin iqtisadi rifahına, daha çox isə həssas qruplara mənsub şəxslərə ciddi təsir göstərir.

Azərbaycanda Cinayət Prosessual Məcəlləsinin 193-cü maddəsi məhkəmə orqanının qərarı ilə vəkil xidmətlərinin ödənişi üçün kifayət qədər vəsaiti olmayan şəxslərə cinayət icraatında pulsuz hüquqi yardım göstərilə biləcəyini bildirir. Müdafiəçinin müvafiq xərcləri dövlət büdcəsi hesabına ödənilir və 2020-ci ilin yanvar ayından etibarən 2020-ci ilə dair dövlət büdcəsində (5519250 AZN) bu məqsəd üçün ayrılmış xüsusi vəsaitdən Vəkillər Kollegiyası tərəfindən ödənilir. Bu, beynəlxalq öhdəliklərə uyğundur.

Bir çox ölkələrdə vəsait məhdudluğu səbəbindən hüquqi yardım qaçılmaz olaraq məhduddur. Yuxarıda göstərildiyi kimi (şəkil 1), Azərbaycan adambaşına düşən hüquqi yardıma qonşu ölkələr və digər Avropa ölkələri ilə müqayisədə olduqca az vəsait xərcləyir. İqtisadi vəziyyət pisləşdikdə hökumətlər hüquqi yardıma ayrılan vəsaiti daha da azalda bilər.

**Azərbaycanda**, Cinayət Prosessual Məcəllə (92-ci maddə) müdafiəçinin iştirakının məcburi olduğu halları müəyyən edir ki, bu da həssas şəxslərlə bağlı əksər halları əhatə edir; belə hallarda xərclər həmçinin dövlət büdcəsi hesabına ödənilir. Nümunələrə daxildir:

- şübhəli və ya təqsirləndirilən şəxs görmə, eşitmə və nitq qabiliyyəti məhdud olduğuna, danışmaq, eşitmək, görmək funksiyalarında digər ciddi qüsurlar olduğuna, uzun sürən ağır xəstəliyinə, habelə kəmağıllığa, aşkar əqli zəifliyə və ya digər qüsurlara görə müdafiə hüququnu müstəqil həyata keçirə bilmədikdə;
- cinayət təqibi üzrə icraat aparılan anda şübhəli və ya təqsirləndirilən şəxsdə ruhi xəstəliyin kəskinləşməsi və ya müvəqqəti ruhi pozuntu aşkar edildikdə;
- şübhəli və ya təqsirləndirilən şəxs cinayət mühakimə icraatının aparıldığı dili bilmədikdə;
- şübhəli və ya təqsirləndirilən şəxs cinayəti törədərkən yetkinlik yaşına çatmadıqda;
- şübhəli və ya təqsirləndirilən şəxs məcburi qaydada xüsusi tibb (stasionar müalicə-psixiatriya) müəssisəsinə yerləşdirildikdə;
- şübhəli və ya təqsirləndirilən şəxsin fəaliyyət qabiliyyəti olmadıqda.

Son CEPEJ araşdırması göstərir ki (cədvəl 2), dövlət hesabına pulsuz hüquqi yardımla təmin edilən işlərin sayı 2012-2018-ci illər arasında xeyli artmışdır. Aztəminatlı qruplar - xüsusilə azlıqlar, yerli əhali və kənd yerlərində yaşayan insanlar üçün dövlət tərəfindən maliyyələşdirilən hüquqi yardım sözsüz k, həlledici əhəmiyyətə malikdir. Təəssüf ki, aşağıdakı rəqəmlər yaş, cins, əlillik statusu və ya etnik azlıq mənsubiyyətinə görə bölünmür.

| | Ümumi işlər | Məhkəməyə gətirilən cinayətkarlar | Məhkəməyə gətirilən cinayətkarlardan başqa |
|---|---|---|---|
| **2018** | 40,190 | 39,142 | 1,048 |
| **2016** | 29,202 | 26,827 | 2,375 |
| **2014** | Mövcud deyil | Mövcud deyil | Mövcud deyil |

| | | | |
|---|---|---|---|
| **2012** | 6,040 | Mövcud deyil | Mövcud deyil |

Cədvəl 2 Mənbə: CEPEJ-STAT məlumat bazası

Pulsuz hüquqi yardıma ayrılan vəsaitlər azaldıqca, dövlətlər mövcud resursların təsirini maksimum dərəcədə artırmağa qadir olan yolları və mexanizmləri təşviq etməlidirlər. Hüquqi yardımın əldə edilməsinə dair BMT prinsipləri[19] ilə müəyyən edilmiş bəzi strategiyalar aşağıdakıları əhatə edir: vəkil köməkçiləri və digər təşkilatlar tərəfindən hüquqi yardım xidmətləri göstərilməsini təşviq və sponsorluq etmək; universitet nəzdində hüquqi yardım klinikaları vasitəsilə hüquqi yardım xidmətləri göstərilməsinin təşviqi və dəstəklənməsi; iqtisadi və sosial cəhətdən əlverişsiz sahələrdə işləmək üçün vergidən azadetmə və ya səyahət və yaşayış müavinətləri kimi stimulların vəkillərə tətbiqi; qurbanlara göstərilən hüquqi yardım xidmətini ödəmək üçün cinayət yolu ilə əldə edilmiş gəlirlərin bərpası vəsaitlərindən istifadə; hüquq peşəsinin inkişafını təşviq etmək və hüquq təhsili istiqamətində maliyyə maneələrini aradan qaldırmaq. Hökümət tərəfindən dəstəklənən bu həllər ilə yanaşı, hüquqi yardımla təmin olunmaq hüququ olmayan şəxslər özəl sektorda getdikcə daha ucuz başa gələn mexanizmlərdən istifadə edirlər.

> Hüquqi yardımla təmin edilməyən şəxslər üçün Avropa Şurası ölkələrində ədalət mühakiməsinə çıxışı asanlaşdıran dəyişikliklərdən biri, hüquqi xərclərin qarşılanması üçün özəl sığortadır. Azərbaycan da daxil olmaqla 32 üzv dövlət və ya qurumlar məhkəmə icraatında hüquq məsləhətləri, hüquqi yardım və təmsilçilik xərcləri üçün xüsusi sığorta sistemindən istifadə edə bilərlər. Buna bərabər imkan, məsələn, Ermənistan, Bolqarıstan, Xorvatiya, Qazaxıstan, Latviya, Malta, Moldova Respublikası, Çernoqoriya, Polşa, Rumıniya, Rusiya Federasiyası, Serbiya, Makedoniya və Türkiyədə yoxdur.
>
> Mənbə: Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (2018-ci ilə dair hesabat).

***Qanunla təmin edilmiş hüquqi yardım xaricində.*** Hüquqi yardım əldə etmə hüquqlarının qanunla mövcud olmasına baxmayaraq, mövcudluğu barədə məlumatlar heç də həmişə rəsmi, yazılı və/və ya təqsirləndirilən şəxslərin ehtiyaclarına uyğun şəkildə verilmir. Bunun nəticəsində hüquqi yardıma səmərəli çıxış imkanı olmur.

Hüquq xidmətlərinin coğrafi bölgüsü kənd yerlərində yaşayan insanlara daha kəskin təsir göstərir və ayrı-seçkiliyə imkan yaradan qanunlar bu qrupların və xüsusilə qadınların hüquqi yardıma çıxış imkanına təsir edir. Aparılmış müsahibələr və toplanılmış məlumatlar göstərir ki, Azərbaycanda Vəkillər Kollegiyası aztəminatlı əhaliyə pulsuz hüquqi yardım göstərmək üçün mütəmadi olaraq bölgələrə səfərlər təşkil edir. Bənzər aksiyalar Bakıda da keçirilir. Bundan

[19] 20 dekabr 2012-ci il tarixində BMT Baş Assambleyasının yekdilliklə qəbul etdiyi (Qətnamə A / RES / 67/187) Cinayət mühakiməsi sistemlərində hüquqi yardımın əldə edilməsinə dair BMT Prinsipləri və Təlimatları (Hüququ yardıma dair BMT Prinsipləri, bənd. 8: http://bit.ly/1NRQ0T0. Bu tərif, həmçinin Afrikada Cinayət mühakiməsi sistemində hüquqi yardıma çıxışa dair Lilonqve Bəyannaməsinə və Lilonqve Fəaliyyət Planına (İqtisadi və Sosial Şuranın Rəsmi Qeydləri, 2007, Əlavə No 10) uyğun gəlir (E/2007/30/Rev.1), fəsil I, bölmə B, qətnamə layihəsi VI, əlavə I və II).

əlavə, ASAN xidmət mərkəzlərində (Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi) və Bakı Dövlət Universitetinin hüquq klinikalarında (3 və 4-cü kurs tələbələri müəllimlərin nəzarəti altında hüquqi yardım xidmətləri göstərir) və Ədliyyə Akademiyasında (aztəminatlı vətəndaşlara məsləhət: pensiyaçılar, əlillər, qaçqın və məcburi köçkünlər, tələbələr) pulsuz hüquqi məsləhətlər verilir.

İşlək hüquqi yardım sistemi qurbanların hüquqlarının müdafiəsi və təmin olunmasında mühüm rol oynayır. Həm təqsirləndirilən şəxslər, həm də cinayət qurbanları üçün hüquqi yardıma çıxışa təminat verilməlidir. Bu, Hüquqi Yardımın əldə edilməsinə dair BMT prinsiplərində[20] geniş təsbit olunur, burada dövlətlərin təqsirləndirilən şəxslərin hüquqlarına xələl gətirmədən və ya zidd olmadan "cinayət qurbanlarına, xüsusilə ağır cinayət qurbanlarına və həssas durumda olan qurbanlara hüquqları və qanuni nümayəndə ilə təmsil olunma haqqında məlumat şəklində hüquqi yardım göstərməli olduqları müəyyən edilir." Azərbaycanda qurbanların, ümumiyyətlə, pulsuz qanuni nümayəndə ilə təmin olunmaq hüququ yoxdur.

Ölkələr üzrə qabaqcıl təcrübələrə dair araşdırma, zorakılıq qurbanlarının hüquqi yardım əldə etmə imkanını yaxşılaşdırmaq üçün həyata keçirilmiş bir sıra strategiyaları müəyyən etdi.

**Polşada**, Ədliyyə Nazirliyi tərəfindən Polşa hüquqşünasları ilə əməkdaşlıqla "qurbanlara hüquqi yardım həftəsi" adlı proqram həyata keçirilir ki, burada özlərini cinayət qurbanı kimi təqdim edənlərə pulsuz hüquqi məsləhətlər verilir. Bu cür təşəbbüslər qeyri-hökumət təşkilatları və digər təşkilatlar tərəfindən də həyata keçirilir.

Mənbə: IBA hesabatı 2015, s. 31.

**Malavidə** İnsan Hüquqlarına dair Təlim, Məsləhət və Yardım Mərkəzi (CHREAA) tərəfindən həyata keçirilən proqram seks işçilərini polisin sui-istifadəsi və istismarından qorumağa yönəlib. Malavidə fahişəlik cinayət sayılmasa da, seks işçiləri polis tərəfindən daima istismara və zorakılığa məruz qalırlar və öz hüquqlarını bilmədikləri üçün çox vaxt əsassız mühakimə və həbslə üzləşirlər. Proqrama polis məmurları və seks işçiləri üçün insan hüquqlarına dair təlim, telefon vasitəsilə yardım və məsləhət üçün pulsuz telefon xətti və yerli radio ilə reklam daxildir.

Mənbə: IBA hesabatı 2015, s. 31.

| | |
|---|---|
| **Aşkar edilən faktlar** | Azərbaycanda fəaliyyət göstərən vəkillərin sayı (adambaşına) qonşu ölkələrə və Avropa standartlarına nisbətən daha azdır. Hüquqi yardımın keyfiyyətini artırmaq üçün səylər göstərilmişdir, həmçinin bu, vəkilləri pulsuz hüquqi yardım göstərməyə (dövlət büdcəsi hesabına) həvəsləndirmə yolu ilə edilmişdir.<br><br>Cinayət işlərində və kassasiya instansiyasında mülki işlərdə pulsuz hüquqi yardım mövcuddur. Müdafiəçinin məcburi iştirakı (xərclər dövlət büdcəsi hesabına ödənilir) həssas durumda olan şəxslərin iştirak etdiyi cinayət işlərində tələb olunur. |

[20] Yuxarıda sətirsonu qeyd 19.

| | |
|---|---|
| | Son illərdə dövlət büdcəsi hesabına maliyyələşən pulsuz hüquqi yardım işlərinin sayı getdikcə artmışdır. Hüquqi məsləhətlər həmçinin paraleqal strukturlar və QHT-lər tərəfindən verilir. |
| **Tövsiyə 4** | Hüquqi təmsilçilik ədalət mühakiməsinə səmərəli çıxışın özəyində dayanır. Həm cinayət, həm də mülki işlərlə əlaqəli keyfiyyətli hüquqi məsləhət və təmsilçiliyin praktikada təmin edilməsi üçün əlavə səylərə ehtiyac vardır. Tövsiyə 3-ə uyğun olaraq, Azərbaycan məhkəmə məlumatlarını toplamaq və yaş, cins, etnik mənsubiyyət, əlillik, milliyyət / miqrasiya vəziyyətinə görə, o cümlədən dövlət büdcəsi hesabına təmin edilən pulsuz hüquqi yardım işləri ilə əlaqədar bölünə bilən statistik məlumatlar hazırlamaq səylərini artırmalıdır. |

## *Məhkəmələrə fiziki çatım*

***Məhkəmələrin coğrafi bölgüsü.*** Daha əvvəl də qeyd edildiyi kimi, Azərbaycanda məhkəmə sisteminin büdcəsi ÜDM-ə faiz nisbətində yüksək deyil. Məhkəmə sisteminin səmərəli fəaliyyətinə mane olan çatışmazlıqların qarşısını almaq və ədalət mühakiməsinə səmərəli çıxışı təmin etmək üçün ədliyyə qurumlarına kifayət qədər maliyyə və insan resursları ayrılması lazımdır. Ədalət mühakiməsi sistemlərinə ayrılmış resurslar ədliyyə qurumlarının coğrafi bölgüsünə təsir göstərə bilər: yetərsiz və qeyri-bərabər bölgü ədliyyə qurumlarının məhdud fiziki əlçatanlığı vasitəsilə ədalət mühakiməsinə çıxış imkanına təsir göstərəcəkdir. Ədalət mühakiməsinə çıxışa olan maneələr, xüsusilə nəqliyyat zəif və ya əlçatmaz olduqda daha çox olacaqdır. Bu təsirləri kənd yerlərində yaşayan insanlar daha kəskin şəkildə hiss edəcəkdir. Cinayət mühakiməsi bölməsində müzakirə edilməsinə baxmayaraq, məhkəmələrin coğrafi bölgüsü həm cinayət, həm də mülki işlərdə eyni dərəcədə əhəmiyyətlidir.

Ən son CEPEJ qiymətləndirməsində Azərbaycan bildirmişdi ki, 86 ümumi yurisdiksiyalı birinci instansiya məhkəməsinə (yəni 100.000 əhaliyə 0.869), 7 kommersiya məhkəməsinə, 7 inzibati məhkəməyə, 6 hərbi və 5 digər ixtisaslaşmış məhkəməyə (yəni ağır cinayətlər üzrə məhkəmələr) malikdir. Məhkəmələr müəyyən məsələlər və ya cinayətlər üzərində xüsusi və müstəsna yurisdiksiyaya malik olduqları təqdirdə, uzaqlıq problemləri daha da arta bilər, çünki məhkəmələrin sayı labüd olaraq az olur[21] Həm ümumi, həm də xüsusi yurisdiksiyaya malik məhkəmələr üçün nəqliyyatın pis vəziyyətdə olduğu kənd yerlərində xidmət göstərməyin bir

[21] Amerika Hüquqşünaslar Assosiasiyası Qanunun Aliliyi Təşəbbüsü (ABA ROLI), Ədalət mühakiməsinə çıxışın qiymətləndirilməsi vasitəsi: Vətəndaş Cəmiyyəti Təşkilatları üçün Ədalət Mühakiməsinə çıxışın təhlili üzrə Bələdçi vəsait (2012) (ABA ROLI), s. 23.

yolu "səfərdə olan" və ya "səyyar" məhkəmələrdən istifadədir, xüsusilə mübahisələrin mürəkkəb hüquqi məsələləri əhatə etmədiyi hallarda (baxmayaraq ki, təkcə bu hallarda deyil). Rəsmi məhkəmə xidmətlərinin coğrafi əlçatmazlığının aradan qaldırılması üçün ikinci strategiya mübahisələrin alternativ (ADR) və/və ya qeyri-rəsmi həllidir. Bəzi yurisdiksiyalarda geniş istifadə olunsa da, digərlərində bu cür yanaşmalara daha az rast gəlinir. Üçüncü strategiya, tərəflərin formaları saytdan yükləməsi, tərtib etməsi və təqdim etməsindən tutmuş, sənədləri və digər sübutları sayta yükləməsinə, onlayn dinləmələrə qədər bir neçə prosedur mərhələsini onlayn şəkildə həyata keçirməsinə imkan verən texnoloji vasitələrin istifadəsini əhatə edir. Bununla belə, bu həllin istifadəsində internetə məhdud çıxış, kompüter biliyi, məlumat təhlükəsizliyi və iştirakçı tərəflərin prosessual hüquqlarını təmin edərkən onlayn baxılması mümkün iş növləri ilə bağlı məhdudiyyətlər mövcuddur.

> Səyyar məhkəmələr bir neçə ölkədə uğurla fəaliyyət göstərmişdir:
>
> • **Filippində**, Təkərlər üzərində məhkəmə proqramı, qısa məhkəmə iclasları aparmaq və ya "ədalət çarxlarını daha sürətli hərəkət etdirərək" hələri asanlaşdırmaq üçün şəhər ərazilərindən kənara səyyar məhkəmələri çıxarır. Modifikasiya edilmiş avtobuslar iki hissədən ibarət səyyar məhkəmələr kimi fəaliyyət göstərir: məhkəmənin iclas zalı və vasitəçilik otağı. Proqram ölkənin hər yerində daxili məhkəmələrdə sıxlıq yaradan 16000-dən çox işi həll etdi.
>
> Mənbə: Innovating Justice vebsaytı.
>
> • **Konqo Demokratik Respublikası**nın şərqindəki ucqar kənd yerlərində, səyyar məhkəmələr məhkəməyə müraciət etmək üçün səfər edə bilməyən gender əsaslı zorakılıq qurbanlarına kömək edir. Bu səyyar məhkəmələr yerli vətəndaş cəmiyyəti qrupları tərəfindən yaradılıb və Konqo qanunvericiliyi ilə rəsmi olaraq tanınır.
>
> Mənbə: ABA ROLI, 2012, s. 24.

***Məhkəmə binalarındakı və kənar fiziki maneələr.*** Fiziki maneələr əlilliyi olan bir çox şəxslərin məhkəmənin iclas zalında, vəkil ofisində, polis bölməsində və ya digər müvafiq binada ədalət mühakiməsinə çıxış imkanına mane ola bilər. Üstəlik, əlilliyi olan şəxslər çox vaxt vəkil, hakim və ya andlı iclasçı qismində ədliyyə sistemindəki əsas rollardan kənarda qalırlar. Simvolik səviyyədə fiziki çatımın olmaması (və ya əlilliyi olan şəxslər üçün ayrılmış yerlər, məsələn, binanın arxasındakı pandus) əlilliyi olan şəxslərin özlərini təcrid olunmuş hiss etməsinə səbəb ola bilər və beləliklə, onları ədalət mühakiməsi ilə bağlı işə davam etməkdən çəkindirir. Əlilliyi olan şəxslərin hüquqlarını müdafiə edənlər, beləliklə, fiziki məkanların universal dizaynını müdafiə edirlər.

> **Cənubi Afrika:** Cənubi Afrikadakı Bərabərlik Məhkəməsində əlillik əsaslı ayrı-seçkilik üzrə ilk iddia əlil arabası istifadəçisi olan Cənubi Afrikalı vəkil tərəfindən qaldırılmışdı. Məhkəmə binalarının əlçatmazlığı səbəbi ilə Ədliyyə Departamenti və İctimai İşlər Departamentindən Bərabərliyin Təşviqi və Ədalətsiz Ayrı-seçkiliyin qarşısının alınması haqqında Qanun əsasında şikayət etdi. Məhkəmə binasına daxil olmaq üçün onu pilləkənlə aşağı daşımaq məcburiyyətində qalmışdılar və başqa bir halda isə Məhkəmə otağa girə bilmədiyi üçün onun işlərini təxirə salmalı olmuşdu.
>
> Məhkəmənin gəldiyi yekun qərarda hökumət etiraf etmişdi ki, əlil arabası üçün lazımi giriş imkanı təmin etməyib və bu, şikayətçiyə və oxşar giriş imkanları yaradılmasına ehtiyacı olan digər insanlara qarşı ədalətsiz ayrı-seçkilik formasıdır.
>
> Mənbə: BMT, Afrika üçün əlillik məsələləri təlimatı, s. 11.

ƏHK-nin Bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi adlanan 5.3-cü maddəsi tələb edir ki, “Bərabərliyin təşviqi və ayrı-seçkiliyin aradan qaldırılması üçün iştirakçı dövlətlər ağlabatan uyğunlaşmanın təmin olunmasına doğru bütün lazımi addımları atmalıdırlar”. ƏHK (2-ci maddə) “şüurlu uyğunlaşma” anlayışının mənasını “əlilliyi olan şəxslər tərəfindən digərləri ilə bərabər səviyyədə bütün insan hüquqlarının və əsas azadlıqlarının realizəsi və həyata keçirilməsini təmin etmək məqsədilə zəruri olduğu hər bir konkret halda qeyri-mütənasib və əsassız yük olmayan zəruri və uyğun modifikasiya və düzəlişlər edilməsi” kimi izah edir. Əlilliyi olan şəxslərin (həm fiziki, həm də əqli əlilliyi olanlar) ədalət mühakiməsinə çıxışı baxımından, "şüurlu uyğunlaşma" əlil təqsirləndirilən və ya zərər çəkmiş şəxsdən ötrü məhkəmə iclasları üçün yerin dəyişdirilməsini tələb edə bilər. Eynilə, görmə və ya eşitmə məhdudiyyətləri də fiziki çatıma mane ola bilər və bununla əlaqədar uyğunlaşmaların tətbiq edilməsi lazımdır. Uyğunlaşmalar praktikada ədalət mühakiməsinə çatımın təmin edilməsi üçün çox vacibdir, lakin əlillik səbəblərinə əsaslanan "şüurlu" uyğunlaşmaların əhatə dairəsi (məsələn, əlil arabası istifadəçiləri üçün pandus tikmək və ya konkret hallarda məkanı dəyişdirmək) yurisdiksiyalarda xeyli fərqli ola bilər.

Azərbaycanda məhkəmələrdə aparılmış müsahibələrdə məhkəməyə effektiv fiziki çatımın yalnız nisbətən yeni məhkəmə binalarında təmin oluna biləcəyi vurğulandı (Nərimanov rayon məhkəməsində müsahibə). Məhkəmə səviyyəsində (Səbail və Nəsimi rayon məhkəmələri və Bakı Apellyasiya Məhkəməsi) fiziki məhdudiyyətə malik insanlar üçün fiziki maneələrin (məsələn, əlil arabasının çatımı; məlumat nöqtəsi; liftlərdə brayl göstəriciləri və s.; görmə məhdudiyyətli şəxslər üçün sənədlərin böyüdülmüş çapı) azaldılması üçün heç bir tədbir görülməmişdir. Binaların köhnə olduğu və fiziki əlilliyi olan şəxslərin dinləmələrdə iştirak etməməsi, daha çox vəkili tərəfindən təmsil olunduğu bildirildi. Məhkəmə otaqlarının müxtəlif mərtəbələrdə yerləşdiyi (məsələn, Bakı Apellyasiya Məhkəməsi) və lift olmadığı təqdirdə, iclasları aşağı mərtəbədə planlaşdırmaq üçün əlillərlə (məsələn, əlil arabası) bağlı işlər əvvəlcədən bildirilməlidir; lakin bu həmişə olmur.

| | |
|---|---|
| **Aşkar edilən faktlar** | Azərbaycanda birinci instansiya məhkəmələrinin coğrafi bölgüsü orta (median) Avropa səviyyəsinə uyğundur. Xüsusi məhkəmələrə münasibətdə ədalət mühakiməsinə səmərəli çıxış məsələləri ortaya çıxa bilər, xüsusən də həmin məhkəmələrin (kommersiya və inzibati məhkəmələrin) yurisdiksiyasındakı işlərdə dövlət hesabına pulsuz hüquqi yardım nəzərdə tutulmadığı üçün (kassasiya mərhələsində olmadıqda).<br><br>Fiziki məhdudiyyətə malik şəxslər üçün məhkəmə binalarına fiziki çıxış ədalətə çatmaq üçün böyük bir maneədir. |

| Tövsiyə 5 | Azərbaycan ucqar ərazilərdəki şəxslərin məhkəmələrə səmərəli çatımını və fiziki məhdudiyyətli şəxslərin məhkəmə binalarına fiziki çatımını təmin etmək üçün qabaqcıl beynəlxalq təcrübələrə əsaslanan tədbirlər və proqramlar həyata keçirməlidir.<br><br>Azərbaycan İT sistemi və vasitələrinə xeyli büdcə vəsaitləri ayırır. Beynəlxalq təcrübələrdən də göründüyü kimi, bu cür vasitələr xüsusi məhkəmələrin (kommersiya və inzibati) yurisdiksiyasında olan işlərdə səmərəli istifadə edilə bilər. |
|---|---|

## *Lazımi hüquqi proses və ədalətli prosedurlar*

Qanunun aliliyi prinsipləri əsasında fəaliyyət göstərən və həmin prinsiplərə əməl edilən səmərəli ədliyyə qurumları sistemində təmin olunduğu halda effektiv hüquqi yardımın təsiri maksimum dərəcədə artır. Belə bir sistem, digər məsələlərlə yanaşı, aşağı instansiyalı məhkəmələr də daxil olmaqla, bütün səviyyələrdə hakimlərin yetərli kvalifikasiya səviyyələrini əhatə edir.

***Həssas durumda olan şəxslər üçün xüsusi tədbirlər.*** İstər təqsirləndirilən şəxs, qurban, istərsə də şahid qismində həssas qrupların cinayət məhkəmə icraatında səmərəli iştirakını təmin etmək üçün xüsusi tədbirlər görülməlidir. AŞ tərəfindən 48 dövlət və ya qurum barədə məlumatları əhatə edən ən son 2020 CEPEJ qiymətləndirmə mexanizmi vasitəsilə toplanılmış məlumatlar, məhkəmə araşdırmaları zamanı həssas durumda olan şəxslərin müəyyən kateqoriyalarına tətbiq olunan xüsusi əlverişli tədbirlərin mövcudluğunu göstərir. Aşağıdakı şəkil 3, müxtəlif Avropa yurisdiksiyalarında məhkəmə icraatı zamanı xüsusi həssas qrupların spesifik ehtiyaclarının nəzərə alınıb-alınmaması və nə zamandan bir nəzərə alınmasını göstərir. Cədvəl 4 isə öz növbəsində son qiymətləndirmə dövründə (2018-ci il məlumatları) eyni suallara Azərbaycan tərəfindən verilmiş cavabları göstərir.

**Şəkil 3: Məhkəmə icraatı zamanı tətbiq olunan əlverişli tədbirlər**




Mənbə: CEPEJ hesabatı 2020

**Cədvəl 4: Azərbaycanda məhkəmə icraatı zamanı tətbiq olunan əlverişli tədbirlər**

| | Məlumat mexanizmi | Məhkəmə iclaslarında xüsusi tədbirlər | Digər spesifik tədbirlər |
|---|---|---|---|
| Cinsi zorakılıq / təcavüz qurbanları | b | b | b |
| Terrorizm qurbanları | x | b | x |
| Yetkinlik yaşına çatmayanlar (şahid və ya zərər çəkmiş şəxs) | b | b | b |
| Məişət zorakılığı qurbanları | b | b | b |
| Etnik azlıqlar | b | b | b |
| Əlil şəxslər | b | b | b |
| Yetkinlik yaşına çatmamış cinayətkarlar | b | b | b |
| Digər (məsələn, insan alveri, məcburi nikah, cinsi şikəstlik qurbanları) | x | x | x |

Mənbə: CEPEJ-STAT məlumat bazası

Şəkil 3 göstərir ki, yurisdiksiyaların əksəriyyəti həssas qrupların qarşılaşdıqları problemlərin həlli üçün xüsusi tədbirlər görmüşdür. Xüsusi tədbirlərə ümumi məlumat mexanizmlərində və ya digər növ tədbirlərdən daha çox, məhkəmə iclaslarında daha çox rast gəlinir. CEPEJ sorğusuna əsasən, məhkəmə iclaslarında xüsusi tədbirlərə, məsələn, aşağıdakılar daxil ola bilər: yetkinlik yaşına çatmayan şəxsin ilk ifadəsinin qeydə alınması; təqsirləndirilən şəxslə

qarşılaşmaq məcburiyyətində qalmaması üçün həssas durumda olan şəxsin canlı audio və ya video konfrans vasitəsilə dinlənilməsi; ictimaiyyətin kənar olması ilə qapalı dinləmə; və həssas durumda olan şəxsin (məsələn, yetkinlik yaşına çatmayan) ifadələrinin probasiya üzrə məsləhətçinin və s. iştirakı ilə verilməsi öhdəliyi (və ya tələb etmə hüququ). Məhkəmədə bu cür təminatlar açıq-aşkar vacibdir.

Azərbaycanda qanun, istər məlumat mexanizmi, istərsə də dinləmələrdə xüsusi tədbirlər, və ya digər konkret tədbirlər kimi bir sıra əlverişli tədbirləri nəzərdə tutur (Cədvəl 4). Cinayət Prosessual Məcəlləsindən nümunələrə daxildir: 14 yaşınadək olan şəxslərin, hamilə qadınların, ağır xəstələrin məhkəmə və ya istintaq orqanlarına məcburi gətirilməsinə yol verilmir (178-ci maddə); yetkinlik yaşına çatmayan şəxsin mənafeyinin qorunması zərurəti yarandıqda cinayət mühakimə icraatında videokonfrans əlaqə sistemindən istifadə etmək (51-2-ci maddə); yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin şəxsiyyəti barədə məlumatların açıqlanmasına yalnız həmin şəxslərin və onların qanuni nümayəndələrinin razılığı ilə yol verilir (222-ci maddə); yetkinlik yaşına çatmayanlar barəsində icraatın xüsusiyyətləri (428-435-ci maddələr); yetkinlik yaşına çatmamış və ya görmə, eşitmə və ya nitq qabiliyyəti məhdud olan və ya digər ağır xəstəlikdən əziyyət çəkən təqsirləndirilən şəxsin və ya şahidin dindirilməsi (228, 229 və 233-cü maddələr).

Yuxarıda şəkil 3-də göstərilir ki, Avropada etnik azlıqlar və ya insan alveri, məcburi nikah və ya cinsi şikəstlik qurbanları kimi digər həssas qruplarla müqayisədə yetkinlik yaşına çatmayanlar, yetkinlik yaşına çatmayan cinayətkarlar, məişət zorakılığı, cinsi zorakılıq və təcavüz qurbanları və əlillərlə bağlı xüsusi tədbirlər daha tez-tez tətbiq olunur. Bu tendensiya ilə yanaşı, Azərbaycanda diqqətəlayiq bir inkişaf, yetkinlik yaşına çatmayanların cinayətləri barədə işlər üzrə məhkəmə təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun

**İngiltərə və Uels:** Məhkəmə Kollecinin Bərabər Rəftar Bələdçi kitabı hakimlər, magistratlar və bütün digər məhkəmə məmurları üçün təlimatı təqdim edir. Burada "Psixi pozğunluqlar, spesifik öyrənmə çətinlikləri və zehni qabiliyyət" bölməsi vardır. Psixi və/və ya fiziki əlilliyi olan şəxslərin ehtiyaclarını həll etmək və təmin etmək üzrə praktiki tədbirlərə daxildir:

• Məhkəmə yeri: Dəlillərin işə əlavə olunması və ya məhkəmə iclasının məhkəmə zalından başqa yerdə aparılması üçün tədbir görülməsinin zəruriliyi daha az aşkar ola bilər, çünki çatım çətin ki problem olsun, baxmayaraq ki, şəxs tanış bir mühitdə daha yaxşı ifadə verə bilər. Sübutları daha yavaş və daha çox fasilə etməklə götürmə ehtiyacı olduğu üçün daha uzun müddət tələb oluna bilər.

• Ünsiyyət: Psixi sağlamlıq problemləri olan şəxsdən, xüsusən əqli inkişafdan geri qalmış şəxsdən etibarlı sübutlar almaq istəyərkən yanaşmanın dəyişməsi tələb oluna bilər və hakim həddindən artıq səy göstərən vəkilin narahatlıq doğuran hər hansı davranışına nəzarət etməlidir. Hər hansı ünsiyyət çətinliklərinin əqli inkişafdan geriliyin nəticəsi olub-olmadığını və ya fiziki yardımların və ya digər yolların istifadəsi ilə aradan qaldırıla bilən fiziki məhdudiyyətlərin səbəb olub-olmadığını müəyyənləşdirmək lazımdır. Tərcüməçi qeyri-adi və ya təhrif olunmuş nitqdə kömək edə bilər.

• Avadanlıqlar: Özünü açıq-aşkar göstərməyən səbəblər ucbatından ətraf mühit şəxs üçün uyğun olmaya bilər (məsələn, bəzi işıqlandırma növləri epilepsiya xəstələrinə təsir edə bilər). Bu zaman müvafiq dəyişikliklərin edilməsi lazım ola bilər.

Mənbə: Bərabər Rəftar Bələdçi kitabı, fəsil 7, www.bit.ly/2rskiJc

30 iyun 2008-ci il tarixli qərarıdır ki, burada məqsəd yetkinlik yaşına çatmayanların cinayət işlərinə baxılması üzrə vahid məhkəmə təcrübəsinin yaradılması və bu qrupun məhkəmə müdafiəsini gücləndirməkdir.

Həmçinin, Avropa tendensiyasına uyğun olaraq, Azərbaycan “Digər (insan alveri, məcburi nikah, cinsi şikəstlik qurbanları)” kateqoriyasına aid hər üç növ tədbirə “yox” cavabını verdi. Sonuncu adı çəkilən qruplar cəmiyyət içərisində yalnız kiçik bir qrupu təmsil etdikləri üçün asanlıqla nəzərdən qaçırıla bilər. Bununla belə, bu qruplara daxil olan insanlar son dərəcə həssas ola və qarşılaşdıqları maneələri dəf etməyə kömək edəcək tədbirlərə daha çox ehtiyac duya bilərlər.

***Xüsusi (ixtisaslaşdırılmış) məhkəmələr.*** Bir çox yurisdiksiyalar qanunun konkret bir sahəsində ixtisaslaşmış məhkəmələrdən istifadə edirlər. Aidiyyəti nümunələrə yetkinlik yaşına çatmayanlar üçün məhkəmələr, immiqrasiya məhkəmələri, psixi sağlamlıq məhkəmələri və ya məişət zorakılığı palataları daxildir. 1980-ci illərdə ABŞ-da məhkəmələrdəki boşluqlara və həbs cəzaları göstəricilərinə əlverişli cavab olaraq ortaya çıxan və bundan sonra digər ölkələrdə yaradılan narkotik ilə bağlı məhkəmələr isə başqa bir nümunədir. İxtisaslaşmış məhkəmələrin yaradılması, ümumiyyətlə, müəyyən məhkəmə ekspertizasına və/və ya müəyyən məhkəmə qərarı proseduruna və ya siyasi və ya sosial cəhətdən həssas məsələləri həll etməyə olan ehtiyac əsaslandırılır. İxtisaslaşmış məhkəmələr, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin özünəməxsus narahatlıqlarına lazımi çevikliyi, daha yüksək səmərəliliyi və həssaslığı təmin edə bilər, eyni zamanda

**Avstraliyanın Yeni Cənubi Uels ştatında,** cinayətkarlıq səviyyəsinin enməsinə baxmayaraq, daha çox yoxsullar, yerli avstraliyalılar və psixi xəstəliklərdən əziyyət çəkənləri əhatə edən saxlanılma sərəncamlarının sayı artıb: yarıdan çoxu narkotik və alkoqolla əlaqəli cinayətlərə görə həbs olunur. Narkotik məsələləri üzrə ixtisaslaşmış Məhkəmə, məcburi müalicə və reabilitasiyaya daha çox diqqət yetirməklə və məsləhətçilər, psixoloqlar, səhiyyə və hüquq mütəxəssislərindən ibarət xüsusi qrupla bu məsələnin qarşısını almağa çalışır. Məhkəmə indi üç yerdə yerləşir və proqram Dövlətdəki cinayət mühakimə sisteminin əhəmiyyətli bir hissəsinə çevrilib.

Mənbə: Yeni Cenubi Uels Narkotik Məhkəməsi (2014).

**İngiltərə və Uels**: Psixi Sağlamlıq Məhkəməsi (PSM) modeli 2009-cu ildə Stratford, Şərqi London və Brayton, Sasseksdə magistrat məhkəmələrində sınaqdan keçirildi. Cinayət mühakiməsi, səhiyyə və üçüncü sektor qurumları birgə proqramı həyata keçirdilər. Pilot məhkəmələri qiymətləndirən ƏN-nin hesabatında PSM-nin əsas tələbləri qeyd edilmişdir:

• PSM işçisinin hər gün məhkəmədə olması;

• PSM-dən əvvəl məlumat mübadiləsi üçün hazırlanmış çoxsahəli qurumların müqavilələri;

• təqsirləndirilən şəxslərin psixi sağlamlıq problemləri üzrə hərtərəfli yoxlanılması və qiymətləndirilməsi;

• icma işinə dair sərəncamların effektiv şəkildə yerinə yetirilib-yetirilməməsini araşdırmaq üçün məhkəmənin proseslərdə iştirakı;

• işçilər və maraqlı tərəflər üçün təlim və maarifləndirmə tədbirləri; və

• cavabdehlərin müvafiq dəstək xidmətlərinə göndərilməsi üçün yerli mənbələrin müəyyənləşdirilməsi və onlarla əlaqələndirilməsi.

Mənbə: Vinston və Pakes, Pilot PSM-in Proses qiymətləndirməsi, bənd iv.

əlavə xərclərə səbəb ola bilər və məhkəmə sisteminin parçalanması və xidmətlərin təkrarlanması riski yarada bilər.

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanda yetkinlik yaşına çatmayanlarla əlaqəli işlərlə məşğul olan xüsusi məhkəmələr olmasa da, iki heyət (hər birində üç hakim) hazırda UNICEF layihəsi çərçivəsində Bakı Ağır Cinayətlər üzrə Məhkəməsində yetkinlik yaşına çatmayanlarla bağlı işlərə baxır. Psixi əlillik daxil olmaqla əlilliyi olan şəxslərlə bağlı işlərə ümumi yurisdiksiya məhkəmələrində baxılır.

***Cinayət məsuliyyətini gənclər üçün alternativ müdafiə vasitələri ilə əvəz etmək proqramları.*** BMT-nin ÜHK 40.3-cü maddəsi müəyyən edir ki, iştirakçı dövlətlər cinayət əməllərinin törədilməsində təqsirli olduğu iddia edilən uşaqlar barəsində zəruri və azruolunan hallarda məhkəmə təhqiqatından istifadə etmədən tədbirlər görməyə çalışmalıdır. Cinayət məsuliyyətini yetkinlik yaşına çatmayanlar üçün alternativ müdafiə vasitələri ilə əvəz etmək strategiyaları, yetkinlik yaşına çatmayanların rəsmi ədalət mühakiməsi sistemi ilə təmasını və təsirini və beləliklə residivliyi azaltmaq üçün rəsmi məhkəmə prosedurlarının əvəzi olaraq nəzərdə tutulur. Onların məqsədi gəncləri məhkəmələrdəki işlərindən başqa istiqamətə yönəltmək, eyni zamanda törətdiyi əməllərə görə cavabdehliyə cəlb etmək və dəstək xidmətləri ilə əlaqə qurulmasını təmin etməkdir. Cinayət məsuliyyətini yetkinlik yaşına çatmayanlar üçün alternativ müdafiə vasitələri ilə əvəz etmək strategiyaları bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir və xəbərdarlıq və azadlığa buraxma proqramlarından daha ağır və ya terapevtik proqram olan müalicə tədbirinə qədər dəyişə bilər. Buna dair misallara bərpaedici ədalət mühakiməsi proqramları (o cümlədən idraki davranış terapiyası və ya məşğulluq məqsədilə təlim verilməsi), ailə müalicəsi, narkotik məhkəmələri və yetkinlik yaşına çatmayanların işi ilə bağlı məhkəmələr daxildir.

Bu hesabatın məqsədləri üçün aparılan masaüstü araşdırma və müsahibələr göstərdi ki, məhkəmə icraatına alternativ olan, uşaq və gender cəhətdən həssas təminatları özündə cəmləşdirən mexanizm göstəriciləri yoxdur.

Bunun əvəzinə, əvvəllər də qeyd edildiyi kimi, qanunda məhkəmə icraatı zamanı və cəza çəkərkən tətbiq ediləcək bir neçə təminat vardır. Sonuncu ilə bağlı ÜHK-nın tələbinə uyğun olaraq Azərbaycanda xüsusi cəzaçəkmə müəssisələri - yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisələri mövcuddur. Bunlar ümumi və möhkəm rejimli müəssisələrə bölünür. Yetkinlik yaşına çatmayan qızlar və ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş yetkinlik yaşına çatmayan oğlanlar ümumi rejimli tərbiyə müəssisələrində cəzalarını çəkirlər. Əvvəllər müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkmiş yetkinlik yaşına çatmayan oğlanlar cəzalarını möhkəmə rejimli tərbiyə müəssisələrində çəkirlər.

***Zorakı davranışın cinayət hesab edilməsi (məişət zorakılığı).*** Zorakı davranışın müəyyən növlərinə görə xüsusi və daha ağır cinayət məsuliyyəti və/və ya heç bir cinayət məsuliyyəti müəyyən edilməməsi özlüyündə hökumət və cəmiyyət səviyyəsində sosial problemlərin olduğunu göstərir. Cinayət məsuliyyətinin müəyyən edilməsi sözügedən davranışın qəbuledilməz olduğuna dair güclü bir mesaj göndərir. Lakin praktikada problemin öhdəsindən gəlmək üçün yalnız cinayət qanunvericiliyi kifayət edə bilməz. Eyni zamanda, qanunvericiliyin olmaması qeyri-tolerant davranışın, ayrı-seçkilik tətbiqetmə və cəzasızlığın səssiz təsdiqi və ya razılaşması kimi qəbul edilə bilər.

Məişət konteksti daxil olmaqla qadınlara qarşı zorakılıq, konkret cinayət məsuliyyətinin müəyyənləşdirilməsinin mümkünlüyünün nəzərdən keçirilə biləcəyi bir nümunədir. Burada bu cür təcrübələrlə mübarizə vasitəsi kimi aydın şəkildə cinayət məsuliyyətinə cəlb etməyin faydaları və hədləri barədə bariz nümunə təqdim edilir. Beynəlxalq Vəkillər Assosiasiyası (İBA) tərəfindən ədalət mühakiməsinə çıxışla bağlı aparılan araşdırma göstərdi ki, sorğuda iştirak edən yurisdiksiyaların böyük bir hissəsində qadınlara qarşı zorakılıq cinayətləri (39 cavabdan 24-ü) və məişət zəminində baş verən zorakılıq cinayətləri (39 cavabdan 21-i) üçün xüsusi və daha ağır cəzalar tətbiq edilmişdir.[22] Bundan başqa, Dünya Bankının apardığı araşdırmaya görə, araşdırılan 173 ölkədən 127 ölkədə məişət zorakılığı ilə bağlı qanunlar vardır, onlardan 118-ində qanunlar 1990-cı ildan bəri tətbiq edilir.[23]

> **İnsan Hüquqları Komitəsi** bildirmişdir ki, **Azərbaycan** səylərini aşağıdakı sahələrdə gücləndirməlidir:
>
> (a) Məişət zorakılığına görə tam şəkildə cinayət məsuliyyəti müəyyən edilməsini, cinsi təcavüzün açıq şəkildə qadağan olunmasını və müvafiq qanunvericiliyin praktikada səmərəli tətbiq olunmasını təmin etmək;
>
> (b) Qadınlara qarşı zorakılığın qəbuledilməzliyi və mənfi təsiri barədə məlumatlılığın artırılması, qadınların hüquqları barədə sistematik şəkildə məlumatlandırılması və məişət zorakılığı hallarının hüquq-mühafizə orqanlarına bildirilməsini təşviq etmək və ortaya çıxan qurbanları qorumaq üçün təsirli bir mexanizm yaratmaq;
>
> (c) Hüquq-mühafizə orqanlarının əməkdaşlarının, məhkəmə sisteminin üzvlərinin, sosial işçilərin və tibb işçilərinin qadınlara qarşı zorakılıq hallarının aşkarlanması və onlarla düzgün mübarizə aparmaq üçün müvafiq təlim keçməsini təmin etmək;
>
> (d) Qadınlara qarşı törədilmiş bütün zorakılıq hallarının dərhal və hərtərəfli araşdırılmasını, cinayətkarların ədalət mühakiməsinə cəlb edilməsini və qurbanların hüquqi müdafiə vasitələrindən, o cümlədən zorakılıq qurbanları üçün yetərli, təhlükəsiz və lazımi səviyyədə maliyyələşdirilən mərkəzlərdən istifadə imkanını təmin etmək;
>
> (e) Qurbanların rəyi və təhlükəsizliyini lazımi şəkildə nəzərə almadan cinsi zorakılıq hallarında məhkəmələrin barışıq tədbirlərinə müraciət etməsinin qarşısını almaq.
>
> Mənbə: CCPR/C/AZE/CO/4 (CCPR 2016)

Daha əvvəl də qeyd edildiyi kimi, Azərbaycanda məişət zorakılığı ayrıca cinayət əməli hesab edilmir, lakin 2010-cu il tarixli "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunu qurbanların narahatlıqlarının həllinə yönəlmiş bir sıra tədbirlər müəyyən etmişdir, məsələn: zərurət olduqda zərər çəkmiş şəxsin dövlət vəsaiti hesabına dərhal tibbi yardımla, yardım

[22] J Beqiraj və L McNamara, Ədalət mühakiməsinə beynəlxalq çıxış: Təqsirləndirilən şəxslərə hüquqi yardım və zorakılıq qurbanlarına hüquqi müdafiə vasitələri (Binqam Qanunun Aliliyi Mərkəzinin hesabatı 2015/05), Beynəlxalq Vəkillər Assosiasiyası, oktyabr 2015, s. 19.
[23] Dünya Bankı, "Qadınlar, biznes və qanun 2016" (Dünya Bankı 2015), 20-23.

mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə təmin edilməsi, habelə onun barəsində psixoloji reabilitasiya kursunun aparılması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanına məlumat göndərmək; məişət zorakılığının yaranmasına səbəb olan halları aşkar etmək və onların qarşısını almaq istiqamətində tədbirlər görmək; məişət zorakılığını törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və onlarla tərbiyəvi-qabaqlayıcı işin aparılması üçün tədbirlər görmək; məişət zorakılığından əziyyət çəkən ailə üzvlərinə onların hüquqlarını, dövlət tərəfindən yaradılan və bu Qanunla müəyyən edilən vasitələrdən istifadə qaydalarını izah etmək; zərər çəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar qərar vermək.

Bununla birlikdə, bu kimi cinayət qanunvericiliyi məişət zorakılığı probleminə təsirli cavabın yalnız bir elementidir. Həm məişət zorakılığını törədənlər, həm də qurbanları çox zaman cinayət təqibinin təklif edə biləcəyindən daha çox dəstəyə ehtiyac duyurlar və bu, mövcud ədalət mühakiməsi mexanizmlərində - həm cinayət, həm də mülki işlərdə, həmçinin qanuni həllərdən kənara çıxan sosial, tibbi və təhsil xidmətlərində fərqli şəkildə əks oluna bilər.

***Əlilliyi olan şəxslər və uşaqlar cinayətin şahidləri və qurbanları qismində.*** "Etibarlı" ifadə hesab edilmə çox vaxt dəqiq yaddaş və xatırlama, ifadə verərkən "sabit" davranış və bildirdiklərinin ardıcıl, əlaqəli, birbaşa çatdırılmasından asılıdır. Bununla belə, əlillər, xüsusən əqli və ya psixi əlilliyi olan insanlar və uşaqlar çox zaman əlilliyi olmayan insanlar və ya böyüklərin adət etmədiyi şəkildə sübut məlumatlarını qavrayır və təqdim edirlər. Bununla belə, bu cür şahidlərin dəlil vermək səlahiyyətində olmadığını düşünmək üçün heç bir səbəb yoxdur. Məhkəmə prosesi zamanı ifadə verməyə bərabər və effektiv şəkildə qatılmalarını təmin etmək üçün bu fərqliliklərdən xəbərdar olmaq və uyğunlaşmanı təmin etmək lazımdır. İfadə verərkən bərabər iştirak üçün uyğunlaşmalar aşağıdakılardan ibarət ola bilər: məhkəmənin iclas zalında daha mehriban bir mühit, o cümlədən, şahidləri müşayiət etmək üçün heyvanların istifadəsi; lazım gəldikdə assimilyasiya üçün fasilələrə yol verməklə, daha yavaş danışan "vasitəçilərin" iştirakı[24]; məsələlərin xatırlanmasına və daha keyfiyyətli məlumat verilməsinə kömək edəcək şəkildə sualların qoyulması, xronoloji ardıcıllıqla bəhs edilməsi və

> **ABŞ:** 1 iyul 2017-ci il tarixdə Florida ştatında Nümayəndələr Palatasının 151 saylı qanun layihəsi qüvvəyə mindi. Qanunvericilik nəzərdə tutur ki, "məhkəmə, cinsi istismar və ya uşaq istismarı, tərk edilmə və ya laqeydliklə əlaqəli hər hansı icraatda əqli inkişaf məhdudiyyətinə malik şəxsin ifadəsini alarkən ... terapiya məqsədilə heyvan və ya xidmət itinin istifadəsi də daxil olmaqla ... ədalətli və uyğun hesab etdiyi digər şərtləri müəyyən edə bilər. Xidmət iti öyrədilir, qiymətləndirilir və sertifikatlaşdırılır və təşkilat şəraitində "hiss olunmayan emosional dəstəyi" təmin edir. Terapiya məqsədilə heyvan dedikdə, terapiya təmin etmək üçün təlim verilmiş, qiymətləndirilmiş və sertifikat verilmiş heyvan başa düşülür. Bunlar məhkəmə iclas zalında ifadə verməyi asanlaşdıran bir çox emosional dəstəklərdən bəzilərini əks etdirirlər.
>
> Mənbə: Florida Nümayəndələr Palatası 2017-ci il Qanunvericiliyi, www.bit.ly/2tsp1Hb

[24] Janine Benedet və Isabel Grant, "Şahidlik etmək: Cinsi təcavüz hallarında psixi əlilliyi olan şahidlərin ədalət mühakiməsinə çıxışı", (2012) 50(1) Osgoode Hall Hüquq Jurnalı, 1–45, www.bit.ly/2sudRVn 13 iyul 2017-ci ildə istifadə edilib.

izah edilmədən yeni mövzulara toxunulmaması; və şahidin sözlərinin və davranışının mənasını hakimə izah edən ekspert ifadələrinin istifadəsi.[25]

**İngiltərə və Uels:** 1999-cu il Yetkinlik yaşına çatmayanlarla bağlı Ədalət Mühakiməsi və Dəlil haqqında qanunu həssas durumda olan şahidlərə kömək etmək üçün "xüsusi tədbirlərdən" istifadə etməyə icazə verir. Xüsusi tədbirlərə "əvvəlcədən qeydə alınmış çarpaz dindirilmə" və "vasitəçi vasitəsi ilə şahidlərin dindirilməsi" daxildir. Ədliyyə Nazirliyi tərəfindən Qeydiyyatdan keçmiş Vasitəçilərin (QV) akkreditasiya sistemi mövcuddur, lakin QV mexanizmindən kənar vasitəçilərə də öz xidmətlərini göstərməyə icazə verilir. Şahidlər yaşlarına, əqli qabiliyyətlərinə, qorxu və ya sıxıntılarına görə xüsusi tədbirlərlə təmin edilməyə uyğun ola bilərlər. Psixi pozğunluqlara malik şahidlər kömək əldə etmək hüququna malikdirlər, baxmayaraq ki, bu cür şahidlər üçün xüsusi tədbirlər yalnız sübutlarının "keyfiyyəti" (16 (5)-ci hissədə) müəyyən edildiyi kimi) əlillik səbəbi ilə azaldığı hallarda təmin edilir.

Vasitəçilərin istifadəsini əhatə edən mexanizm, həmçinin psixi əlilliyi və ya digər psixi pozğunluqları olan təqsirləndirilən şəxslər, həm də şahidlər üçün qanuni şəkildə təmin olunduğu **Şimali İrlandiya**da tətbiq edilmişdir. Uşaqlar üçün nəzərdə tutulmuş pilot sxem **Yeni Cənubi Uels**də (Avstraliya) 2015-ci ildən bəri fəaliyyət göstərir.

**Şotlandiya**da QV-lər polis səviyyəsində fəaliyyət göstərir, lakin məhkəmə prosesində iştirak etmir.

Mənbə: Həssas durumlu insanların ədalət mühakiməsinə çıxışına həsr olunmuş konfrans, Mişel Mattisonun təqdimatı.

| | |
|---|---|
| **Aşkar edilən faktlar** | Azərbaycanda həssas qrupların məhkəmə proseslərində səmərəli iştirakının təmin edilməsinə yönəlmiş xüsusi tədbirlər qanunla müəyyən edilmişdir. Ancaq xüsusi tədbirlər, uşaqlar və zorakılıq qurbanları kimi bəzi qruplarla əlaqəli olaraq daha çox tətbiq olunur. |
| **Tövsiyə 6** | Azərbaycan qanunda təsbit edilmiş təminatların praktikada tətbiq olunmasını - xüsusən fiziki və psixi əlilliyi olan insanlar, etnik azlıqların üzvləri, miqrantlar, insan alveri qurbanları və s. ilə bağlı beynəlxalq təcrübədə hökumət səviyyəsində, məhkəmə səviyyəsində, QHT dəstəyi və s. tədbirləri əhatə edən nümunələrə əsaslanaraq gücləndirməlidir. |

## *Hakimlər, prokurorlar və inzibati işçilər üçün müvafiq təlim*

Güclü, müstəqil və səmərəli məhkəmə hakimiyyəti, daima biliklərini zənginləşdirən, bacarıqlarını saxlayan və yenilərini əldə edən hakimlər, prokurorlar və digər inzibati heyətin olmasını tələb edir. Məhkəmə proseslərində getdikcə daha mürəkkəb və həssas olan məsələlər hakimlərdən yeni çətinliklərin öhdəsindən gəlmək üçün öz biliklərini uyğunlaşdırmağı daha çox tələb etdiyi halda, bu tələb özünü getdikcə daha da kəskin göstərir.

[25] Neta Ziv, “Psixi pozğunluqları olan şahidlər: Uyğunlaşmalar və həqiqət axtarışı”, (2007) 27(4) Əlillik məsələləri üzrə araşdırmalar Rüblük buraxılış. Həmçinin bax: Bərabər rəftar bələdçi kitabı, bölmə 7.

Qurban və şahidlərlə qarşılıqlı əlaqədə olan cinayət məhkəmə qurumlarında hakimlər və işçilər üçün davamlı təlim hüquqi yardımın əldə edilməsinə dair BMT prinsiplərində qətiyyətlə tövsiyə olunur.[26]

**İngiltərə**də, Psixi Sağlamlıq Tribunalında məhkəmə məmurları seçim əsasında bir sıra aktual mövzuları əhatə edən illik tədbirlər proqramı çərçivəsində iki günlük təlim keçməlidirlər.

Mənbə: Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (2014).

**ABŞ**-da 2011-ci ildə Rod Ayland ştatında birbaşa cinayət qurbanları və sağ çıxmış qurbanlarla işləyən şəxslərə təlim verilməsi məqsədi ilə Rod Ayland Ştatı Qurbanlara Yardım Akademiyası təsis edildi. İştirakçılar detektivlər, evsizlər və məişət zorakılığı qurbanları ilə işləyən vəkillər, xəstəxana tərcüməçiləri, ahıllarla bağlı çalışan işçilər və dövlət və özəl sektorda işləyən başqa işçiləri əhatə edir. Akademiyadakı sesiyalar gey, lesbiyan və transseksual məsələlər, qurbanların hüquqları, ahılların problemləri və qurbanın təzminatı kimi mövzuları əhatə edir. Proqram, Rod Ayland Ailə məsələləri Xidməti və Rocer Uilyams Universiteti arasındakı tərəfdaşlığın nəticəsidir.

Mənbə: Rod Ayland Ailə məsələləri Xidməti (2011).

**Kosovo**da 2009-2013-cü illər BMT İnkişaf Proqramı/Niderland tərəfindən maliyyələşdirilən "Qadınların Təhlükəsizliyi Təşəbbüsü" layihəsi, qurbanlara göstərilən xidmətlərlə əlaqəli bütün fəaliyyət sahələrində (ədliyyə, təhlükəsizlik, sosial rifah, səhiyyə və təhsil daxil olmaqla) "profilaktik və çevik xidmətləri" artırmağa yönəlmişdir. Layihə məişət zorakılığına dair qanunvericilik bazasının tətbiq edilməsini; Ədliyyə Nazirliyində Məişət Zorakılığı Katibliyinin yaradılması; və hökumətin Məişət Zorakılığı ilə Mübarizə üzrə Milli Fəaliyyət Planının icrasını izləyən vətəndaş cəmiyyəti şəbəkəsini dəstəklədi.

Mənbə: Kosovoda BMT İnkişaf Proqramı (2013)

Bununla belə, İBA-nın 2015-ci ildə ədalət mühakiməsinə çıxışla bağlı apardığı araşdırma aşkar etdi ki, anket iştirakçılarının üçdə birindən az hissəsi öz yurisdiksiyalarında (Avstriya, Avstraliya, Hindistan, Yaponiya, Malta, Nigeriya, İsveç, Böyük Britaniya və ABŞ) təlimin məcburi olduğunu göstərib. Anket və əlavə tədqiqatlar, həmçinin QHT-lər və digər təşkilatlar tərəfindən istər müstəqil, istərsə də hökumət ilə əməkdaşlıq ilə təşkil olunan bir sıra təlim proqramlarının olduğunu müəyyən etmişdir.

Azərbaycanda həssas qrupların hüquqları və ehtiyacları ilə bağlı mövzularda təlimlər universitet tədris proqramlarının və vəkillərin, hakimlərin və digər dövlət məmurlarının ilkin və davamlı təliminin tərkib hissəsidir. Magistratura pilləsində tədris proqramının tərkib hissəsi olaraq "Yuvenal ədliyyə" adlı 60 saatlıq insan hüquqları kursu tədris olunur. Əsasən uşaq hüquqları və bəzən əlillər, ailədaxili zorakılıq və insan alveri qurbanlarının hüquqları ilə əlaqəli mövzular hakimlərin, prokurorların və digər dövlət məmurlarının ilkin və davamlı təliminin tərkib hissəsidir. Nümunələrə daxildir:

- Uşaq hüquqları ilə əlaqəli mövzular hakimliyə və vəkilliyə namizədlərin, prokurorluq orqanlarına və ədliyyə orqanlarına namizədlərin tədris proqramına daxil edilmişdir. Hakimliyə namizədlərin ilkin tədris proqramına "Yuvenal ədliyyə" və "Azərbaycan

[26] Yuxarıda sətirsonu qeyd 19.

Respublikasında Uşaq Hüquqları haqqında BMT-nin Konvensiyasının qanunvericilikdə və təcrübədə implementasiyası" mövzusunda mühazirələr daxil edilmişdir.

- 2019-cu ildə hakimliyə namizədlərin ilkin tədris proqramına "Əlillərin Hüquqları haqqında Konvensiya" mövzusunda mühazirə daxil edilmişdir.
- Ədliyyə Akademiyasında tədrisə cəlb olunmuş ədliyyə orqanlarına qulluğa qəbul üzrə müsabiqədə uğur qazanmış namizədlərin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb xidmətinə və Məhkəmə ekspertizası mərkəzinə işə qəbul edilən namizədlərin və əməkdaşlarının, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin orta rəis heyətinə qulluğa qəbul ediləcək namizədlərin tədris proqramlarına "Xüsusi yanaşma tələb edən məhkumlar (yetkinlik yaşına çatmayanlar, qadınlar, əlillər, əcnəbilər və ahıllar) barədə azadlıqdan məhrum etmə cəzasının icrası xüsusiyyətləri" kimi mühazirələr daxil edilərək tədris edilmişdir.
- "Yuvenal ədliyyə" mövzusunda mühazirələr Ədliyyə Akademiyasında keçirilən icbari təlim kurslarına, o cümlədən, ədliyyə orqanlarında qulluğa qəbulla bağlı müsabiqədə müvəfəqqiyət qazanmış namizədlərin, prokurorluq orqanlarında qulluğa qəbulla bağlı müvəfəqiyyət qazanmış namizədlərin, Vəkillər Kollegiyasının üzvlüyünə namizədlərin namizədlərin, Penitensiar Xidmətdə orta rəis heyərinə qulluğa qəbul edilən namizədlərin tədirsd proqramlarına daxil edilmişdir. Həmçinin Ədliyyə Akademiyası UNİCEF-lə birdə 2017-ci ildə icra və probasiya şöbələrinin əməkdaşları üçün "Yuvenal ədliyyə" adlı ikigünlük təlim keçirmişdir.
- 2018-ci ildə UNICEF-in Azərbaycandakı nümayəndəliyi, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Polis Akademiyası hakimlər, dövlət ittihamçıları, probasiya xidmətinin əməkdaşları, polis əməkdaşları və sosial işçilər üçün "Uşaqlar üçün ədliyyə" mövzusunda birgə regional təlimlər keçirmişdir. Təlimlər Gəncə, Şəki və Lənkəranda baş tutmuşdur.
- 2019-cu ilin iyun ayında UNICEF və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə ədliyyə mütəxəssisləri üçün "Ədliyyə Nazirliyinin Probasiya Xidməti heyətinin yuvenal ədliyyə üzrə bacarıqlarının artırılması" mövzusunda təlim keçirildi. Daha sonra təlimdə fəal iştirak edən 5 nəfər iştirakçı üçgünlük Təlimçilərin Təlimi (ToT) proqramına cəlb olunmuşdur.
- Ədliyyə Akademiyasında tədrisə cəlb olunmuş ədliyyə orqanlarına və prokurorluq orqanlarına qulluğa qəbul üzrə müsabiqədə uğur qazanmış namizədlərin, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvlüyünə namizədlərin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb xidmətinə və Məhkəmə ekspertizası mərkəzinə işə qəbul edilən namizədlərin və əməkdaşlarının, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin orta rəis heyətinə qulluğa qəbul ediləcək namizədlərin tədris

proqramlarına "Məişət zorakılığının qurbanı kimi qadınlar və bu zorakılığın cəzalandırılması mexanizmləri" kimi mühazirələr daxil edilərək tədris edilmişdir.

- Ədliyyə Akademiyası Beynəlxalq Miqrasiya Təşkilatı ilə birgə "Azərbaycanda insan alverinə qarşı mübarizə üzrə milli potensialın artırılması" layihəsi çərçivəsində müxtəlif təlim və konfranslar, təlim səfərləri həyata keçirib. Həmçinin layihə çərçivəsində "İnsan alveri ilə bağlı məhkəmə presedentləri toplusu" və "Cinayət istintaqı orqanları üçün insan alverinə qarşı mübarizə üzrə Mütərəqqi Təlimat" hazırlanaraq nəşr edilmişdir.

| | |
|---|---|
| **Aşkar edilən faktlar** | Azərbaycanda həssas qrupların hüquqları və ehtiyacları ilə bağlı mövzularda təlimlər universitet tədris proqramlarının və vəkillərin, hakimlərin və digər dövlət məmurlarının ilkin və davamlı təliminin tərkib hissəsidir. Azərbaycan hökuməti və ya beynəlxalq proqramlar tərəfindən təşkil olunan bu təlimlər həssas qrupların spesifik hüquqi ehtiyacları barədə məlumatlılığın artırılması üçün faydalı olmuşdur. Təlimlər əsasən uşaqlar üçün hüquq və təminatlardan, bəzən isə məişət zorakılığı qurbanlarının və əlillərin hüquqlarından bəhs edirdi. |
| **Tövsiyə 7** | Tövsiyə 6-ya uyğun olaraq, hakimlər, prokurorlar və digər məhkəmə işçiləri üçün keçirilən təlimlərdə bütün həssas qrupların hüquqları, o cümlədən məişət zorakılığı qurbanlarının, fiziki və psixi əlilliyi olan şəxslərin, etnik azlıqların üzvləri, miqrantlar, insan alveri qurbanları və digərlərinin hüquqlarına dair mövzulara əlavə diqqət verilməlidir. |

### 3.2. Mülki və inzibati ədalət mühakiməsi

*Hüquqi yardım və təmsilçilik və pulsuz hüquqi yardıma çıxış*

Mülki və inzibati məhkəmə icraatlarında vəkilin məcburi iştirakı ilə digər hallar arasında fərqi müəyyən etmək olar. Kassasiya və əlavə kassasiya şikayətləri, habelə məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizələrdə vəkilin məcburi iştirakı tələb olunur. Bu hallarda (Mülki Prosessual Məcəllənin 67-ci maddəsi) işdə iştirak edən şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, pulsuz hüquqi yardımdan faydalana bilərlər. Müvafiq olaraq, birinci və ikinci instansiya məhkəmələrində tərəflər vəkil xərclərini ödəmək imkanları olmadığı təqdirdə özünümüdafiəyə müraciət etməlidirlər. Özünümüdafiə seçimdir, lakin yetkinlik yaşına çatmayanlar və ya əlillərlə olduğu kimi qanunla məhdud fəaliyyət qabiliyyəti olduğu və ya fəaliyyət qabiliyyətsiz olduğu hallarda, bu inkar edilə bilər.

***İnstitusionalizasiya və azadlıqdan məhrumetmə***. İnstitusionalizasiya, əlilliyi olan şəxslərə mərkəzləşmiş dəstək xidmətləri göstərmək üçün səhiyyə və ya yaşayış müəssisələrində yerləşdirməyi özündə birləşdirən ayırma siyasətidir. Bir "müəssisə"nin xüsusiyyətlərinə daxildir: şəxsiyyətdən kənarlaşdırma, sərt rutin, qapatmaqla müalicə, cəmiyyətdən sosial və ya coğrafi məsafə və paternalistik tədbirlər. Beləliklə, müəssisə ölçüsünə görə deyil, daha çox sakinlərin gündəlik qərarlar üzərində nəzarəti həyata keçirə biləcəyi müstəqillik dərəcəsinə görə müəyyən olunur.

Əlillərin hüquqları haqqında Konvensiyanın (ƏHK) Azadlıq və şəxsi toxunulmazlıq adlanan 14-cü maddəsi aşağıdakıları müəyyən edir:

"İştirakçı dövlətlər əlillərin digərləri ilə bərabər səviyyədə:

a) azadlıq və şəxsi toxunulmazlıq hüququndan istifadə etməsini;

b) azadlıqdan qanunsuz və ya özbaşına məhrum edilməməsini və istənilən azadlıqdan məhrumetmənin qanuna uyğun olmasını, əlillyin isə azadlıqdan məhrum edilmək üçün əsas olmamasını təmin edirlər." Əlavə olaraq, ƏHK-nın 19-cu maddəsi, əlil şəxslərin müəssisələrdə məcburi yerləşdirilməsi qaydalarına zidd olaraq harada və kiminlə birlikdə yaşamağı seçmək hüququnu təsbit edir. Beləliklə, bu maddələr birlikdə müəssisələrdə məcburi yerləşdirilməni tənzimləyən hüquqi bazanı təşkil edir. Aydındır ki, müəssisəyə məcburi yerləşdirilməyə qarşı güclü prosedur təminatları, habelə bu cür yerləşdirmələr olduğu zaman onlara məhkəmə baxışı imkanı olmalıdır.[27] Bu, məcburi yerləşdirməklə əlaqəli stiqmanın və daha da əhəmiyyətlisi, müəssisələrdə meydana gələ biləcək və gələ bilən istismarın qarşısını almaq üçündür.

Bu baxımdan, ƏHK Komitəsi, Azərbaycandakı vəziyyətə toxunaraq "bu cür qapadılmaya və müəssisəyə məcburi yerləşdirməyə etiraz etmək üçün

**Bolqarıstan:** *Stanev Bolqarıstana qarşı* işdə Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) müəyyən etdi ki, ərizəçinin 9 il ərzində sosial qayğı evində məcburi yerləşdirilməsi AİHK-in 5-ci maddəsinə zidd olaraq, əsassız azadlıqdan məhrumetməni təşkil edib. Bu qərara səbəb olan amillər arasında qurumun yüksək dərəcədə nizamlanmış cədvəli, qurumun nümayəndələrinin şərti olaraq orada olmaması və gündəlik məsələlər üzrə qərar vermədə müstəqilliyin olmaması yer alır.

Məhkəmə qərarında AİHM bu məsələ ilə bağlı aparıcı işlərə də diqqət çəkdi və qeyd etdi ki: 'aşağıdakı kimi şərtlərdə azadlıqdan məhrumetmə tərkibi var idi: (a) qanunla fəaliyyət qabiliyyəti olmayan elan edilmiş və qanuni nümayəndəsinin tələbi ilə psixiatriya xəstəxanasına yerləşdirilən ərizəçinin xəstəxananı tərk etməyə müvəffəq olmadığı təqdirdə (bax: *Ştukaturov Rusiyaya qarşı*, № 44009/05, § 108, AİHM 2008); (b) ərizəçi əvvəlcə klinikaya qəbul olunmasına razılıq verib, lakin sonradan qaçmağa cəhd göstərib (bax: *Stork Almaniyaya qarşı*, № 61603/00, § 76, AİHM 2005-V); və (c) ərizəçi, psixiatriya müəssisəsinə qəbul edilməsinə razılıq vermək iqtidarında olmayan yetkinlik yaşına çatmış şəxs olduğu, lakin heç vaxt oranı tərk etməyə cəhd etmədiyi halda (bax: *H.L. Böyük Britaniyaya qarşı*, № 45508/99, §§ 89-94, AİHM 2004 -IX).'

Mənbə: *Stanev Bolqarıstana qarşı,* 2012, bənd 118, www.bit.ly/2ttHu6b.

[27] Əlillərin Hüquqları Komitəsi, Əlillərin Hüquqları haqqında Konvensiyanın 14-cü maddəsinə dair təlimatlar: Əlillərin azadlığı və təhlükəsizliyi hüququ, sentyabr 2015, bənd 7, www.bit.ly/2rZCZTf 13 iyul 2017-ci ildə istifadə edilmişdir.

dəqiq prosedurlar olmadan və müvafiq məhkəmə baxışı olmadan əqli və / və ya psixososial əlilliyi olan böyüklərin və uşaqların psixiatriya müəssisələrinə məcburi olaraq qapadılması və uşaqlar da daxil olmaqla, müxtəlif əlilliyi olan şəxslərin müəssisələrə məcburi yerləşdirilməsi barədə məlumatlardan narahatlığını ifadə etmişdir. Bu, praktikada sərbəst buraxılma perspektivini xəyala çevirir."[28] Komitə, həmçinin əlillərin hüquqları ilə bağlı ayrıca bir qanuna ehtiyac olduğunu qeyd etmişdir.[29]

**Yeni Zelandiya:** Ruhi sağlamlıq xidmətləri ilə əlaqədar milli sorğuya cavab olaraq, 1997-ci ildə Yeni Zelandiya Səhiyyə Nazirliyi "Bənzər ağıllar, mənimkinə bənzər" layihəsini (əvvəllər "bənzər ağıllar" adlandı) yaratdı. Bu, ruhi xəstəliyi olan insanlara qarşı stiqma və ayrıseçkiliyə qarşı mübarizə aparmaq üçün dünyada ilk hərtərəfli kampaniyalardan biri idi və bu günə qədər davam edir. Hökumət və icma qurumları arasında şəffaf əməkdaşlıq mövcuddur. Yeni Zelandiya hökuməti layihəni maliyyələşdirir, strateji məsuliyyəti Səhiyyə Nazirliyi daşıyır. Layihə ƏHK-ya uyğun olaraq konkret şəkildə əlilliyin sosial modelini ('tibbi' modeldən fərqli olaraq) və insan hüquqları perspektivini qəbul edir. "Bənzər ağıllar" yarandığı gündən bəri cəmiyyətin ruhi sağlamlığa olan münasibətini izləmişdir. 2014-cü ildən 2019-cu ilədək diqqət iş yerində əhatə olunma, ruhi xəstəliklərin mediada müsbət şəkildə işıqlandırılması üzrə rəhbər prinsiplərə və ayrıseçkilik və stiqmaya qarşı icmanın həll yollarının təşviq edilməsinə yönəlmişdir. Hesablanmışdır ki, Bənzər ağıllar kampaniyasına xərclənən hər 1 dollar təqribən 13,80 ABŞ dolları dəyərində iqtisadi fayda şəklində geri qayıdır (məşğulluq imkanının artması, işlədikləri saatların və ilkin tibbi xidmətdən istifadənin artması).

Mənbə: Səhiyyə nazirliyi, Bənzər ağıllar, mənimkinə bənzər, milli Plan 2014–2019.

***Məcburi tibbi müalicə.*** Tibbi müəssisələrə yerləşdirilən əlillər daha çox ehtimal ki, istəmədikləri müalicəni alırlar. BMT-nin İşgəncələr üzrə Xüsusi Məruzəçisi aşkar etdi ki, "müəssisələrin içərisində, o cümlədən məcburi ambulator müalicə zəminində psixatriya dərmanları, o cümlədən neyroleptiklər və zehni dəyişdirən digər dərmanlar, psixi pozğunluğu olan şəxslərə onların sərbəst və məlumat verilərək razılığı alınmadan və ya onların iradəsinə zidd olaraq məcburi şəkildə və ya cəza forması olaraq verilə bilər".[30]

ƏHK-nın 17-ci maddəsində göstərilir ki, "Hər bir əlil onun fiziki və psixi bütövlüyünə başqa şəxslərlə bərabər səviyyədə hörmət olunması hüququna malikdir." ƏHK-nın 25-ci maddəsi də səhiyyə xidmətinin ayrı-seçkiliyə yol verilmədən sərbəst və məlumat verilərək alınmış razılıq əsasında göstərilməsini nəzərdə tutur. BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi (ən yüksək səviyyədə əldə edilə bilən sağlamlıq hüququ ilə əlaqədar olaraq) bildirdi: "[sağlamlıq hüququ həm azadlıqları, həm də hüquqları ehtiva edir. Azadlıqlara, öz sağlamlığına və orqanizminə nəzarət etmək, o cümlədən ... işgəncə, məcburi tibbi müalicə və eksperimentdən azad olmaq hüququ kimi müdaxilələrdən azad olmaq hüququ daxildir."[31]

[28] Əlillərin Hüquqları Komitəsi, CCPR/C/AZE/CO/4 (CCPR 2016), bənd. 12.
[29] yenə orada, bənd 10.
[30] İşgəncələr və digər qəddar, qeyri-insani və ya alçaldıcı rəftar və ya cəzalara dair İnsan Hüquqları Şurasının xüsusi məruzəçisi, Məruzə, A/63/175, 28 iyul 2008, bənd 63.
[31] Birləşmiş Millətlər Təşkilatının İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi, ən yüksək səviyyədə əldə edilə bilən sağlamlıq hüququ haqqında 14 saylı ümumi şərh (maddə 12), E/C.12/2000/4, 11 avqust 2000, bənd 8.

Nəticə etibarilə, Əlillərin Hüquqları üzrə Xüsusi Məruzəçinin qeyd etdiyi kimi: “aydındır ki, sağlamlıq şəxsiyyətin iradəsindən asılı olmayaraq həyata keçirilə bilən bir məqsəd deyil, ancaq sağlamlıq hüququndan istifadə etmək hər bir fərdin öz fiziki və ruhi bütövlüyü üzərində iradəsinə və sərbəstliyinə hörmət tələb edir. Fərdi razılığın “müalicə məqsədi” və ya “tibbi zərurət” əsasında dəyişdirilməsinə imkan verən hər hansı bir mübahisə, sağlamlıq hüququ üzrə beynəlxalq insan hüquqları standartları ilə ziddiyyət təşkil edir.’[32] ƏHK-ya uyğun olaraq məcburi tibbi müalicəyə yanaşma ondan ibarətdir ki, əlillik səbəbi ilə məcburi müalicə qadağan edilməlidir.

Bir çox ölkələr məcburi müalicə ilə bağlı ƏHK tələblərinə uyğunlaşmaq üçün qanunvericilikdə islahat aparmalıdır, çünki mövcud psixi sağlamlıq qanunları əlillərin müəyyən hallarda məcburi tibbi müalicəsinə icazə verir.

2012-ci ildə aparılmış araşdırma göstərdi ki, **Avropa İttifaqı**nda 13 üzv dövlətdə ruhi sağlamlıq problemi ilə yanaşı zərər riski və müalicəyə ehtiyac iki meyardır ki, məcburi yerləşdirmə və müalicəni əsaslandırır. Bu, Danimarka, Yunanistan, Finlandiya, Fransa, İrlandiya, Latviya, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, İsveç və İngiltərədə belədir.

Mənbə: Avropa İttifaqının Əsas Hüquqlar Agentliyi, psixi sağlamlıq problemi olan şəxslərin məcburi yerləşdirilməsi və məcburi müalicəsi, iyun 2012, s. 16, www.bit.ly/1TWq65C.

| | |
|---|---|
| **Aşkar edilən faktlar** | Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanda fəaliyyət göstərən vəkil sayı (adambaşına) qonşu ölkələrə və Avropa standartlarına nisbətən daha aşağıdır. Vəkillərin pulsuz hüquqi yardım göstərməyə təşviq edilməsi yolu ilə (dövlət büdcəsi hesabına) hüquqi yardımın keyfiyyətinin artırılması üçün səylər göstərilmişdir.<br><br>Mülki və inzibati işlərdə pulsuz hüquqi yardım yalnız kassasiya instansiyasında mümkündür.<br><br>Paraleqal strukturlar və QHT-lər tərəfindən də hüquqi yardım və məsləhətlər veriir. |
| **Tövsiyə 8** | Etiraz üçün aydın prosedurlar və müvafiq məhkəmə baxışı olmadan müəssisələrə məcburi yerləşdirilən müxtəlif əlilliyi olan insanlar, o cümlədən uşaqlar üçün istər pulsuz, istərsə də aşağı qiymətə başa gələn hüquqi təmsilçiliyə çıxış əhəmiyyətini itirir. Belə hallarda praktikada keyfiyyətli hüquqi məsləhət və təmsilçiliyin təmin edilməsi üçün əlavə səylərə ehtiyac var. Beynəlxalq təcrübədən nümunələr arasında problemin |

[32] Avropa Şurası, Bioetika üzrə Komitə, Psixi pozğunluqları olan şəxslərin məcburi yerləşdirmə və məcburi müalicə ilə əlaqədar insan hüquqlarının və ləyaqətinin qorunmasına dair Əlavə Protokol, ictimai məsləhətləşmə zamanı alınan şərhlərin tərtibatı, 9 dekabr 2015, s. 29, www.bit.ly/2s36rEE.

| | |
|---|---|
| | səviyyəsini qiymətləndirən və mümkün həll yollarını müəyyən edən müstəqil sorğular yer alır. |

*Lazımi hüquqi proses və ədalətli prosedurlar*

***Əlillərin hüquq qabiliyyəti və dəstəklənən qərarvermə.*** Əlillərin hüquq qabiliyyətinə malik olması ƏHK-nın 12-ci maddəsində təsbit edilib. Konvensiyanın iştirakçı dövlətlər tərəfindən həyata keçirilməsinə nəzarət edən Əlillərin Hüquqları Komitəsinin qeyd etdiyi kimi, hüquq qabiliyyəti hüquqlara sahib olmaq (hüquqi vəziyyət) və bu hüquqlardan istifadə etmək hüququndan ibarətdir (hüquq qabiliyyəti).[33] Hüquqi vəziyyət, qanun qarşısında hüquqi şəxs kimi tanınmağı əhatə edir - buraya doğum şəhadətnaməsinə malik olmaq və ya seçkilərdə iştirak daxildir. Hüquq qabiliyyəti, hüquqi münasibətlərə girmə, dəyişdirmə və ya son vermə qabiliyyətini ehtiva edir və bu cür hərəkətləri qanunun dəstəkləməsini təmin edir. Hüquq qabiliyyətinə nümunələrinə əmlak alqı-satqısı və ya tibbi müalicədən imtina etmək daxildir.

> Əlillər "dünyadakı hüquq sistemlərində hüquq qabiliyyəti ən çox inkar edilən qrup olaraq qalırlar."
>
> Mənbə: Əlillərin Hüquqları Komitəsi, Ümumi şərh No 1, 2014.

Hüquq qabiliyyəti, bir şəxsin başqalarının müdaxiləsi olmadan özü üçün müstəqil qərar vermək hüququnu təsdiqləyir və qoruyur. Bu anlayış fərdin şəxsiyyətini və müstəqilliyini tanımaq üçün vacibdir.

ƏHK-nın 12-ci maddəsi bütün əlillərin tam hüquq qabiliyyətinə malik olduğunu təsdiqləyir. Bununla belə, fiziki, psixi, əqli və ya duyğu pozğunluğu olanlar da daxil olmaqla əlillər "dünyanın hər yerində hüquq sistemlərində hüquq qabiliyyəti ən çox inkar edilən qrupdur".[34] Əlillərin hüquq qabiliyyətinin məhdudlaşdırılması və ya rədd edilməsi müxtəlif əsaslandırmalardan irəli gələ bilər. ƏHK Komitəsi tərəfindən dövlət təcrübəsinin təhlili ən azı üç

> **Moldova**: Fəaliyyət qabiliyyəti olmayan elan edilən şəxslərin hüquqi vəziyyəti (status) olmadığından ədalət mühakiməsinə çıxış imkanı yoxdur; yalnız şəxsin qəyyumu və ya dövlət ittihamçısı, ictimai bir məsələ olduğu təqdirdə hüquq qabiliyyətindən məhrum edilmiş şəxsin adından məhkəmədə mülki işi qaldıra bilər.
>
> Xalq Vəkili İdarəsinin vəsatətinə əsasən, 13 noyabr 2014-cü il tarixində Moldova Respublikasının Konstitusiya Məhkəməsi, "fəaliyyət qabiliyyəti olmayan" elan edilmiş şəxslərin Xalq Vəkili İdarəsinə şikayət etmək və qərarlarına hörmət edilmədiyi zaman hüquqi müdafiə vasitələri tələb etmək hüquqlarını tanıdığı barədə qərar verdi. Ancaq qərar milli məhkəmələrə şamil edilmədi.
>
> Mənbə: Əlillərin hüquqları üzrə xüsusi məruzəçi, Moldovaya dair məruzə, 2016, bənd 54.

[33] Əlillərin Hüquqları Komitəsi, qanun qarşısında bərabər tanınma haqqında 1 saylı ümumi şərh (maddə 12), 19 may 2014, bənd 13.
[34] Əlillərin Hüquqları Komitəsi, qanun qarşısında bərabər tanınma haqqında 1 saylı ümumi şərh (maddə 12), 19 may 2014, bənd 8 və 14.

yanaşmanı əks etdirir, lakin hər biri problemli suallar doğurur.[35]

Birincisi, "status yanaşması" əlilliyi hüquq qabiliyyətinin yoxluğuna bərabər edir (yəni əlillik statusu şəxsi avtomatik olaraq hüquq qabiliyyətindən məhrum edir). Hüquq qabiliyyətindən məhrum olma əlillik diaqnozunun avtomatik nəticəsidir. Əqli və ya psixososial əlilliyi olan şəxslər hüquq qabiliyyətinin rədd edilməsindən qeyri-mütənasib şəkildə əziyyət çəkirlər.[36] Bu baxışda əlilliyin və hüquq qabiliyyətinin ikili, sıfır faktorları kimi yanlış anlayışdan istifadə olunur. Təcrübədə, pilləli qabiliyyət və imkan səviyyələri vardır ki, avtomatik və tamamilə əvəz olunmuş qərarvermə əvəzinə struktur dayaqlarla gücləndirilə bilər və gücləndirilməlidir.

İkincisi, "nəticələr yanaşması" əlilliyə deyil, şəxsin qərarverməsinin "ağlabatanlığına" əsaslanaraq hüquq qabiliyyətini verir və ya saxlayır. Məsələn, bir şəxsin tibbi müalicədən imtina etmə qərarı, həmin şəxsin "mənafeyinə" zidd olduğu üçün sual doğura və beləliklə, bu qərarı vermək üçün hüquq qabiliyyətinin olmaması ilə nəticələnə bilər. Bu yanaşma əlillərə paternalistik ikili standart tətbiq edir; yəni əlillər səhv və ya risk etməyə görə cəzalandırılır, halbuki əlilliyi olmayan insanların əksəriyyəti bu "səhv" seçimləri sərbəst şəkildə edirlər.

Sonuncu, "funksional yanaşma" insanın öz hərəkətlərinin mahiyyətini və nəticələrini qiymətləndirə bilib-bilməyəcəyinə əsaslanan hüquq qabiliyyətini təmin edir. Bunun əsasında hüquq qabiliyyəti ilə əqli qabiliyyətin problemli qarışığı dayanır. Əqli qabiliyyət insanın qərarvermə bacarıqlarını əks etdirir və onu özlüyündə elmi cəhətdən qiymətləndirmək çətindir.

**Kanada (Britaniya Kolumbiyası):** Britaniya Kolumbiyasında 1996-cı il Təmsilçilik Razılaşması haqqında Qanun, "dəstəklənən qərarvermə" prinsiplərinin (əlil təşkilatların daha çox iştirakı və stimulu sayəsində) xüsusilə uğurlu bir təzahürüdür.

Ruhi xəstəliyi olan və/və ya əqli qüsurlu insanlar üçün qabiliyyət nəzərdə tutulur (bölmə 3). Şəxs qabiliyyətinin itirilməsini qabaqcadan görsə, "təmsilçilik müqaviləsi" bağlaya, dəyişdirə və ləğv edə bilər; bu, nümayəndəyə həmin şəxsin qərarverməsinə kömək etməyə və ya şəxsi qayğı və ya maliyyə kimi məsələlərdə şəxsin adından qərar verməyə səlahiyyət verir.

Qanun bir sıra imkanların qiymətləndirilməsində və başa düşülməsində çevikliyə imkan verir. Məsələn, şəxs, ənənəvi müqavilə qanunvericiliyi müddəalarına görə bacarıqları olmadığı və ya səhiyyə işlərini və ya gündəlik maliyyə işlərini idarə edə bilmədikləri təqdirdə də nümayəndə ilə təmsil olunma müqavilələri bağlaya bilər (bölmə 8). Bundan əlavə, insanın "başqaları ilə ünsiyyət qurma üsulu onun nəyisə başa düşməyə qabil olmamasına qərar vermək üçün əsas deyil" (bölmə 3).

Mənbə: Britaniya Kolumbiyası,Təmsilçilik Razılaşması haqqında Qanun, paylama materialı, www.bit.ly/2so2S0e; Kristin Qordon tərəfindən edilmiş təqdimat www.bit.ly/2sjp0rY.

[35] Yenə orada, bənd 15.
[36] Yenə orada, bənd 9.

Bunun əvəzində, ƏHK ayrı-seçkiliklə (yəni yalnız əlillik səbəbi ilə) hüquq qabiliyyətinin inkar edilməsini qadağan edir və ehtiyac olduğu hallarda "hüquq qabiliyyətinin həyata keçirilməsində dəstəyin verilməsini tələb edir" (12-ci maddə). Bu model "dəstəklənən qərarvermə" adlandırılır.[37] O, əlil şəxsin əsas qərar qəbuledici olaraq qalmasını qəbul edir və eyni zamanda bir çox mənbələrdən verilən dəstəyin yaxşılaşdırılmasının əlillərin müstəqilliyini gücləndirə biləcəyini qəbul edir. ƏHK Komitəsi, "dəstəyin" qeyri-rəsmi və rəsmi tədbirləri əhatə edən geniş bir termin olduğunu qeyd edir.[38]

**Çexiya:** Çex Respublikasının 2014-cü il yeni Mülki Məcəlləsi ümumi qəyyumluğu ləğv etdi və "dəstəklənən qərarvermə formasını tətbiq etdi".

Hüquq qabiliyyətinin olmayacağını qabaqcadan görən insanlara öz maliyyə məsələləri və gündəlik həyatı ilə bağlı niyyətlərini əks etdirən təlimatı qabaqcadan yazmağa icazə verilir. Bu sxem əlillərin hüquq qabiliyyətinin toxunulmaz qaldığını və kömək edən şəxslə əlil şəxs arasında müqavilənin məhkəmə tərəfindən təsdiqlənməsini tələb edir.

Əlavə olaraq, yeni Mülki Məcəllə qəyyumluq şuraları yaradılmasına icazə verir - üç və ya daha çox insan qəyyumların fəaliyyətinə nəzarət etmək üçün ildə ən azı bir dəfə görüşür. Bu qurum icbari olmasa da, qəyyumluq şurası qəyyumları nəzarət altında saxlamaq, əlil şəxsin qabiliyyətini və iradəsini daha yaxşı qorumaq üçün nümunə rolunu oynayır.

Mənbə: Psixi sağlamlıq imkanları məhdud şəxslərin müdafiəsi Mərkəzi, Hesabat 2013, s. 49.

***Qəyyumluqla bağlı icraatda uşaqların fikirlərinin dinlənilməsi.*** BMT UHK, uşaqların mülki və ailə hüququ icraatında iştirakının yaş və yetkinlik dərəcəsindən asılı olaraq hər bir konkret hal üçün müəyyən edilməsini təmin edir. Bəzi yurisdiksiyalar qanuna görə uşağın yetərincə yetkin və öz fikirlərini ifadə edə bilən gənc hesab edildiyi minimum yaşı müəyyənləşdirir. Azərbaycanda Ailə Məcəlləsi (52-ci maddə) müəyyən edir ki, məhkəmə və ya qəyyumluq və himayə orqanı yalnız 10 yaşına çatmış uşağın razılığı ilə qərar qəbul edə, habelə qərar qəbul edərkən 7 yaşına çatmış uşağın fikrini öyrənə və nəzərə ala bilər.

Məhkəmə icraatında uşaqların fikirlərinin dinlənilməsi hüququnu təsdiqləyən qanunvericiliyin mövcud olmasına baxmayaraq, bu hüquq praktikada az tətbiq oluna bilər.

**Danimarkada** 2004-cü ildə aparılmış mürəkkəb boşanma işləri ilə bağlı araşdırma göstərdi ki, uşaqların yalnız 25%-nə fikirlərini bildirmək imkanı verilib. Üstəlik, təcrübədə 7-11 yaşlı uşaqların yalnız 52%-i müsahibə verib. Təqdim olunan səbəblər arasında sosial işçilərin ağır iş yükü və qəribədir ki, onların uşaqlarla müsahibə aparmaqda "inamsızlıqları" göstərilib.

Mənbə: O'Donnell, (2009).

[37] Müxtəlif dəstəklənən qərarvermə modellərinin nəzərdən keçirilməsi üçün baxın: Soumitra Pathare və Laura S Shieds, "Psixi xəstəliyi olan şəxslərlə bağlı qərarvermə prosesinin dəstəklənməsi: Baxış", (2012) (34)2 İctimai Səhiyyəyə Baxışlar, www.bit.ly/2tVfZCX .
[38] J Beqiraj, L McNamara və V Wicks, Əlillərin ədalət mühakiməsinə çıxışı: beynəlxalq prinsiplərdən praktikaya, Beynəlxalq Vəkillər Assosiasiyası, oktyabr 2017, s. 17.

**Estoniyada**, qəyyumluq işlərində məhkəmələrdə ən azı yeddi yaşındakı uşaqların fikri dinlənilə bilər.

**Norveçdə,** yeddi yaşına çatmış uşaqlar və öz fikirlərini formalaşdıra bilən yeddi yaşınadək uşaqların şəxsi vəziyyətlərinə təsir edən qərarlar qəbul edilməzdən əvvəl fikirlərini bildirməsinə icazə verilir. 12 yaşından sonra uşağın rəyinə böyük üstünlük verilir.

**Mərakeşdə**, 15 yaşına çatmış uşağın qəyyum olaraq atası ilə anası arasında seçim etmək hüququ vardır.

**Macarıstanda**, (UHK narahatlıqla qeyd edib ki) 14 yaşdan kiçik uşaqların qəyyumluq ilə əlaqəli qərarlarda dinlənilmə hüququ yoxdur və praktikada bu yaşdan yuxarı uşaqların fikri yalnız istisna olaraq, o cümlədən boşanma və uşağa qəyyumluq hallarında dinlənilir.

Mənbə: IBA hesabatı 2016, s. 34.

| | |
|---|---|
| **Aşkar edilən faktlar** | ƏHK hüquq qabiliyyətinin ayrı-seçkiliklə (yəni yalnız əlillik səbəbi ilə) inkar edilməsini qadağan edir və ehtiyac olduğu hallarda “hüquq qabiliyyətinin həyata keçirilməsində dəstəyin verilməsini tələb edir” (12-ci maddə). Bu model “dəstəklənən qərarvermə” adlandırılır. ƏHK Komitəsi tərəfindən vurğulanan əqli və / və ya psixososial məhdudiyyətə malik böyüklərin və uşaqların psixiatriya müəssisələrində məcburi saxlanması və müxtəlif əlilliyi olan şəxslərin məcburi müəssisəyə yerləşdirilməsi praktikaları göstərir ki, Azərbaycan bu baxımdan Konvensiyaya tam riayət etmir. |
| **Tövsiyə 9** | Azərbaycan həssas qrupların, xüsusən də əlillərin hüquqlarının praktikada tətbiqini gücləndirməli və məcburi yerləşdirmə (müəssisələrdə) modelindən iştirakçı yanaşma və dəstəklənən qərarvermə sisteminə keçmək üçün addımlar atmalıdır. |

**Fəsil 4: Tövsiyələrin xülasəsi**

| | **TÖVSİYƏLƏR** |
|---|---|
| 1 | Beynəlxalq öhdəliklərin lazımi şəkildə yerinə yetirilməsini təmin edərkən insan hüquqlarının monitorinqi ilə məşğul olan orqanlar tərəfindən qaldırılan sistematik məsələlərə daha çox diqqət yetirilməlidir. |
| 2 | Məhkəmə qurumlarına yetərincə maliyyə və insan resursları ayrılmaması məhkəmə sisteminin səmərəli fəaliyyət göstərməsində çatışmazlıqlar yarada bilər və ədalət mühakiməsinə çıxış imkanına ciddi təsir göstərə bilər. Məhkəmə sisteminin ehtiyaclarının hərtərəfli qiymətləndirilməsi sistemdə vəsaitlərin istifadəsinin daha dəqiq qiymətləndirilməsinə kömək edəcəkdir. |
| 3 | "Ölçə bilmirsinizsə, yaxşılaşdıra bilməzsiniz" şüarına uyğun olaraq məhkəmə statistikası məhkəmə islahatı üçün vacibdir. Məhkəmə statistikasının yaş və cinsdən əlavə əlillik, etnik mənsubiyyət, miqrasiya statusu üzrə ayrılması Davamlı İnkişaf Məqsədləri (DİM) çərçivəsində də tələb olunur ki, burada hökumətlər ədalət mühakiməsinə səmərəli çıxış imkanı daxil olmaqla “heç kim kənarda qalmamalıdır” öhdəliyi götürüblər (DİM 16). Azərbaycan məhkəmə məlumatlarını toplamaq və yaşa, cinsə, etnik mənsubiyyətə, əlilliyə, milliyyətə / miqrasiya statusuna görə bölünə bilən statistik məlumatlar hazırlamaq üçün səylərini artırmalıdır. |
| 4 | Hüquqi təmsilçilik ədalət mühakiməsinə səmərəli çıxışın özəyində dayanır. Həm cinayət, həm də mülki işlərlə əlaqəli keyfiyyətli hüquqi məsləhət və təmsilçiliyin praktikada təmin edilməsi üçün əlavə səylərə ehtiyac vardır. Tövsiyə 3-ə uyğun olaraq, Azərbaycan məhkəmə məlumatlarını toplamaq və yaş, cins, etnik mənsubiyyət, əlillik, milliyyət / miqrasiya vəziyyətinə görə, o cümlədən dövlət büdcəsi hesabına təmin edilən pulsuz hüquqi yardım işləri ilə əlaqədar bölünə bilən statistik məlumatlar hazırlamaq səylərini artırmalıdır. |
| 5 | Azərbaycan ucqar ərazilərdəki şəxslərin məhkəmələrə səmərəli çatımını və fiziki məhdudiyyətli şəxslərin məhkəmə binalarına fiziki çatımını təmin etmək üçün qabaqcıl beynəlxalq təcrübələrə əsaslanan tədbirlər və proqramlar həyata keçirməlidir.<br><br>Azərbaycan İT sistemi və vasitələrinə xeyli büdcə vəsaitləri ayırır. Beynəlxalq təcrübələrdən də göründüyü kimi, bu cür vasitələr xüsusi məhkəmələrin (kommersiya və inzibati) yurisdiksiyasında olan işlərdə səmərəli istifadə edilə bilər. |
| 6 | Azərbaycan qanunda təsbit edilmiş təminatların praktikada tətbiq olunmasını - xüsusən fiziki və psixi əlilliyi olan insanlar, etnik azlıqların üzvləri, miqrantlar, insan |

| | |
|---|---|
| | alveri qurbanları və s. ilə bağlı beynəlxalq təcrübədə hökumət səviyyəsində, məhkəmə səviyyəsində, QHT dəstəyi və s. tədbirləri əhatə edən nümunələrə əsaslanaraq gücləndirməlidir. |
| 7 | Tövsiyə 6-ya uyğun olaraq, hakimlər, prokurorlar və digər məhkəmə işçiləri üçün keçirilən təlimlərdə bütün həssas qrupların hüquqları, o cümlədən məişət zorakılığı qurbanlarının, fiziki və psixi əlilliyi olan şəxslərin, etnik azlıqların üzvləri, miqrantlar, insan alveri qurbanları və digərlərinin hüquqlarına dair mövzulara əlavə diqqət verilməlidir. |
| 8 | Etiraz üçün aydın prosedurlar və müvafiq məhkəmə baxışı olmadan müəssisələrə məcburi yerləşdirilən müxtəlif əlilliyi olan insanlar, o cümlədən uşaqlar üçün istər pulsuz, istərsə də aşağı qiymətə başa gələn hüquqi təmsilçiliyə çıxış əhəmiyyətini itirir. Belə hallarda praktikada keyfiyyətli hüquqi məsləhət və təmsilçiliyin təmin edilməsi üçün əlavə səylərə ehtiyac var. Beynəlxalq təcrübədən nümunələr arasında problemin səviyyəsini qiymətləndirən və mümkün həll yollarını müəyyən edən müstəqil sorğular yer alır. |
| 9 | Azərbaycan həssas qrupların, xüsusən də əlillərin hüquqlarının praktikada tətbiqini gücləndirməli və məcburi yerləşdirmə (müəssisələrdə) modelindən iştirakçı yanaşma və dəstəklənən qərarvermə sisteminə keçmək üçün addımlar atmalıdır. |

**Biblioqrafiya**

American Bar Association Rule of Law Initiative (ABA ROLI), Access to Justice Assessment Tool: A Guide to Analysing Access to Justice for Civil Society Organizations (2012) (ABA ROLI).

Benedet J. and Grant I., 'Taking the Stand: Access to Justice for Witnesses with Mental Disabilities in Sexual Assault Cases', (2012) 50(1) Osgoode Hall Law Journal, 1–45, www.bit.ly/2sudRVn accessed 13 July 2017.

Beqiraj J., McNamara L. and Wicks V., Access to justice for persons with disabilities: From international principles to practice, International Bar Association, October 2017.

Beqiraj J and McNamara L, Children and Access to Justice: National Practices, International Challenges (Bingham Centre for the Rule of Law Report 02/2016), International Bar Association, October 2016.

Beqiraj J. and McNamara L., International Access to Justice: Legal Aid for the Accused and Redress for Victims of Violence (A Report by the Bingham Centre for the Rule of Law 2015/05), International Bar Association, October 2015.

Beqiraj J. and McNamara L., International Access to Justice: Barriers and Solutions (Bingham Centre for the Rule of Law Report 02/2014), International Bar Association, 2014.

Council of Europe, CEPEJ, evaluation of judicial systems, 2018-2020, available at: https://www.coe.int/en/web/cepej/dynamic-database-of-european-judicial-systems

Council of Europe, Committee on Bioethics, Additional Protocol on the protection of the human rights and dignity of persons with mental disorders with regard to involuntary placement and involuntary treatment, Compilation of comments received during the public consultation, 9 December 2015, p 29, www.bit.ly/2s36rEE.

Drug Court of New South Wales, Annual Review (2014) http://bit.ly/1KJmD5S, website (2015) http://www.drugcourt.justice.nsw.gov.au.

Family Service of Rhode Island, 'Family Service of RI partners with Roger Williams University to bring Training and Focus to Victims' Issues', 7 November 2011 http://bit.ly/1KJk9V2.

Mental Disability Advocacy Centre, Summaries of Mental Disability Cases Decided by the European Court of Human Rights, 2007, www.bit.ly/2rKkSy1.

New Zealand Ministry of Health and Health Promotion Agency, Like Minds, Like Mine, National Plan 2014–2019: Programme to Increase Social Inclusion and Reduce Stigma and Discrimination for People with Experience of Mental Illness, Wellington, www.bit.ly/2rrfZJ2.

O'Donnell D, The Right of Children to be Heard: Children's right to have their views taken into account and to participate in legal and administrative proceedings, UNICEF Innocenti Research Centre, Florence, 2009.

Peroni L., Timmer A., Vulnerable groups: The promise of an emerging concept in European Human Rights Convention law, International Journal of Constitutional Law, Volume 11, Issue 4, October 2013, Pages 1056–1085, https://doi.org/10.1093/icon/mot042

UN Committee on Economic, Social and Cultural Rights, General Comment No 14 on the right to the highest attainable standard of health (Article 12), E/C.12/2000/4, 11 August 2000.

UN Committee on the Rights of Persons with Disabilities, CCPR/C/AZE/CO/4 (CCPR 2016).

UN Committee on the Rights of Persons with Disabilities, General Comment No 1 on Equal recognition before the law (Article 12), 19 May 2014.

UN Committee on the Rights of Persons with Disabilities, Guidelines on Article 14 of the Convention on the Rights of Persons with Disabilities: The right to liberty and security of persons with disabilities, September 2015, para 7, www.bit.ly/2rZCZTf .

UN, Human Rights Committee, General Comment No 32 on Article 14: Right to equality before courts and tribunals and to a fair trial, CCPR/C/ GC/32, 23 August 2007, para 10.

UN Principles and Guidelines on Access to Legal Aid in Criminal Justice Systems ('UN Principles on Legal Aid'), adopted by unanimous consent by the UN General Assembly (Resolution A/RES/67/187) 20 December 2012, available at: http://bit.ly/1NRQ0T0 .

UN Special Rapporteur of the Human Rights Council on Torture and other Cruel, Inhuman or Degrading Treatment or Punishment, Report, A/63/175, 28 July 2008.

UN, 'Transforming our world: the 2030 Agenda for Sustainable Development', Resolution adopted by the General Assembly on 25 September 2015.

UN Toolkit on Disability for Africa, Module 8, Access to Justice for Persons with Disabilities, 2016, www.bit.ly/2lyOIlI.

UNDP in Kosovo, 'Women's Safety and Security Initiative' (2013) http://bit.ly/1L72Dst.

Winstone J. and Pakes F., Process Evaluation of the Mental Health Court Pilot, Ministry of Justice Research Series 18/10, September 2010, www.bit.ly/2tmHJzZ.

World Bank, "Women, Business and the Law 2016" (World Bank 2015).

Ziv N., 'Witnesses with Mental Disabilities: Accommodations and the Search for Truth', (2007) 27(4) Disability Studies Quarterly. See also Equal Treatment Bench Book, Section 7.